40_27 IYUl-QARA.qxd 10/23/2025 8:56 PM Page 1


# UNİKAL

№40 (2270) 24 oktyabr 2025-ci il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.az


# Azərbaycanla Ermənistan sülhün bir addımlığında: Danışıqlar müxtəlif müstəvilərdə davam edir



Səh.9



# Abel Məhərrəmovun həbs xofu

*Ötən həftə dövlətə xəyanət, hakimiyyəti zorla ələ keçirməyə yönələn hərəkətlər və çirkli pulların yuyulması kimi xüsusilə ağır cinayətlərdə ittiham olunan Ramiz Mehdiyevlə yaxın əlaqədə olmuş, onun sayəsində karyera yüksəlişi yaşamış şəxslər ciddi narahatlıq yaşayırlar. Buna səbəb isə onların da cinayət məsuliyyətinə cəlb edilmə ehtimalının kifayət qədər yüksək olmasıdır. Sözügedən şəxslərin bir çoxu Azərbaycan cəmiyyətində korrupsioner imicinə sahibdirlər və qaranlıq yollarla ağlasığmaz sərvət sahibinə çevriliblər. "Ramiz Mehdiyev işi" səbəbindən təlaşlanan fiqurlar arasında Bakı Dövlət Universitetinin sabiq rektoru və keçmiş deputat Abel Məhərrəmov da var. Məhərrəmovun Mehdiyevlə...*

Səh.8

## "Azərbaycan və Ermənistan arasında de-fakto sülh bərqərar olub"



*Cənubi Qafqaz Tədqiqatlar Mərkəzinin direktoru, politoloq Fərhad Məmmədov "Unikal"a müsahibə verib. O, Azərbaycan və Ermənistanın vətəndaş cəmiyyəti nümayəndələrinin İrəvanda keçirilən görüşünün əhəmiyyətindən, görüşdə hansı məsələlərin müzakirə olunmasından, iki ölkə arasında sülh...*

Səh.4

## Gələn il bütün növ əmək pensiyaları artırılacaq



*""Əmək pensiyaları haqqında" qanuna əsasən, hər il əmək pensiyaları əvvəlki ildə orta aylıq əməkhaqqındakı artım faizinə uyğun olaraq indeksləşdirilərək artırılır". Bunu "Unikal"a açıqlamasında deputat Vüqar Bayramov deyib. O bildirib ki, 2026-cı ilin yanvar ayında da əmək pensiyaları indeksləşdirilərək artırılacaq.*

Səh.3

## Dövlət-vətəndaş əlaqələrinin yeni mərhələsi



*Azərbaycan hökumətinin həyata keçirdiyi sosial siyasət ictimai maraqların müdafiəsinin əsas sütunlarından biridir. Əhalinin sosial müdafiəsi, aztəminatlı təbəqələrin rifahının yaxşılaşdırılması, təhsil və səhiyyə xidmətlərinə çıxış imkanlarının genişləndirilməsi dövlətin başlıca prioritetləri sırasındadır.*

Səh.11

40_27 IYUI-QARA.qxd 10/23/2025 9:03 PM Page 2



# "Musa məndən əvvəl ölsün, şan-şöhrətli yas verəcəyəm" - Təranə Qumral



*Müğənnilər Təranə və Musa Musayevlər efirlərin birində qonaq olublar.*

Xanım ifaçı açıqlaması ilə diqqət çəkib. Onun ərinin özünün qabaq ölməsini arzulaması sosial şəbəkədə müzakirələrə səbəb olub.

"Musa deyir ki birinci mən ölüm. Mən də razılaşıram. Ona görə ki, mən ona şan-şöhrətli yas verə bilim. İndi yas yerlərinə gedəndə "mız" qoyurlar. Məndən qabaq rəhmətə getsə onu şanlı-şöhrətli basdırmalıyam dillərə dastan... Ancaq mən ondan qabaq ölsəm, onu elə basdıran olmayacaq. Onu dəfn edəndən 3 gün sonra da özüm ölərəm. Məni basdıran olmasın, eybi yoxdur". Qeyd edək ki, şou-biznesin ən romantik cütlüyü tez-tez ailə mövzusunda açıqlamaları ilə gündəmə gəlirlər.

# "Tanınmış aparıcıya 6 min manat borc verdim, "blok"a atdı" - Nüşabə Musayeva



Müğənni Nüşabə Musayeva açıqlaması diqqət çəkib.

O, tanınmış aparıcı ilə münasibətlərinin korlanmasından danışıb. Sənətçi pul məsələsinə görə onunla düşmən olub: "Hazırda şou-biznesdə 3 nəfər var ki, danışmırıq. Daha doğrusu, onlar mənimlə danışmır. Pis günlərində əllərindən tutmuşam. Borc - borcdur onu qaytarmalısan. Desən ki, mənə kömək et, imkan daxilində edərəm. Qaytaracağı vaxtdan da bir ay keçmişdi. Pulumu istədim, pis oldum. Məni "bloka"a atdı. Ona görə heç kəsə borc vermirəm. Qadın aparıcıdır, adını çəkməyəcəyəm. Qızına görə demirəm. Sürücümü göndərdim ki, sonuncu gündür, məbləği götürsün. Pulu minnətlə çırpıb onun üstünə.

Hər yerdə mənim adıma yalanlar danışır. Biri də var idi, deyir sənin o pula ehtiyacın yoxdur ki... Məndə heç kəsin borcu qalmaz. Əziyyətlə qazanıram".

# "Kərimə görə özümü bağışlaya bilmirəm" - Mətanət İsgəndərli



*Əməkdar artist Mətanət İsgəndərli oğlu Kərimlə bağlı yaşanan hadisəyə görə peşmanlığını dilə gətirib.*

Özünü bağışlaya bilmədiyini deyən müğənni "Övladlarınızla bağlı hansı hadisəyə görə özünüzü bağışlaya bilmirsiniz" sualına cavablayıb.

"Bir hadisədə özümü bağışlaya bilmirəm. Bunu bir özüm, bir də Allahım bilir. Bu, oğlum Kərimlə bağlıdır".

Xatırladaq ki, Mətanət İsgəndərlinin oğlu Kərim keçmiş xanımı Canana ilə qalmaqallı şəkildə ayrılmışdı. İzləyicilər ifaçının üzüntüsünü sözegedən məsələyə bağlayıblar.

# Aynur Dadaşova canlı efirdə ağladı

*Müğənni Aynur Dadaşova televiziya proqramlarından birində canlı yayım zamanı duyğusal anlar yaşayıb.*

Atasını xatırlayarkən göz yaşlarını saxlaya bilməyib.

Veriliş zamanı Maştağadan olan qonşusu və mərhum atasının ən yaxın dostu efirə zəng edərək ifaçıya sürpriz edib.

Gözlənilməz zəng onu kövrəldib. O, atasını xatırlayarkən hisslərini gizlədə bilməyib və efirdə göz yaşlarına hakim ola bilməyib.

Sözügedən anlar izləyiciləri də kövrəldib.

# Zauru verilişində pərt etdi



*Xəbər verdiyimiz kimi, mahnıya görə müğənnilər Mehriban Qənbərova və Nişanə Baxışova canlı efirdə "söz davası"na çıxıblar.*

Sözügedən dava-dalaşa efirin digər qonaqları da şahidlik ediblər. Onlardan biri meyxanaçı-müğənni Aydın Sani verilişin aparıcısı Zaur Nəbioğluna kəskin etirazını bildirib. "İki qadın söhbətidir. Biz də otumuşuq burada. Ya başımızı aşağı salaq, ya çıxıb gedək. Nə fikirləşirsən? Başqa veriliş edib mövzu qoyardınız. Bizim üçün burada oturmaq çətindir".

Tele-aparıcı isə yaşanan gərginliyin ondan asılı olmadan baş verdiyini və müğənninin anidən efirə gəldiyini bildirərək özünə haqq qazandırıb.

# "Mənim heç nəyim yoxdur" - Məleykə Əsədova



*"Gəzintini olduqca çox sevirəm. Buğa bürcüyürəm, həyatı, yaşıllığı, dənizi çox sevirəm. Amma səhralıq yerə getmərəm, sevmirəm. Zəlzələdən, təyyarə qəzalarından qorxmuram, elə şeyləri ürəyimə gətirmirəm. Hər il gəzintiyə vaxt ayırıram".*

Bu sözləri Xalq artisti Məleykə Əsədova "Günə uğurla" verilişində deyib. O, bağ evi almaq əvəzinə həmin pulla səyahət etməyə üstünlük verdiyini bildirib: "Olsun 100 ədəd ev, kim bu dünyadan gedəndə onları özü ilə aparır? O pulu yaşamağıma həsr edirəm. Mənim heç nəyim yoxdur. Allahdan həmişə istəyirəm ki, mənə can sağlığı versin. Yaşamağı çox sevirəm. Əsas özüm varam. Nə edirəm o bağı ki, orada işləməyə adam tutacağam, nə qədər xərcim çıxacaq. Mən uşaq oxudururam. Pulum olsun, yaşayım. Pulu yığmaq üçün yox, xərcləmək üçün istəyirəm. Bəlkə də məni həyatda saxlayan səyahətlərimdir. Pul yığmıram, bağı özüm istəmirəm. İstəsəm, bağım olardı. O pula gedib gəzirəm. Bir evim var, həyəti də var".

40_27 IYUl-QARA.qxd 10/23/2025 9:55 PM Page 3





## "Azərbaycan sülhün reallaşmasına əlverişli şərait yaradıb" - Deputat

***"Azərbaycan Prezidenti İlham Əliyevin Astanada səsləndirdiyi bəyanat iki qardaş ölkə arasında münasibətlərin sarsılmaz əsaslara söykəndiyini bir daha nümayiş etdirdi".***

Bunu "Unikal"a açıqlamasında Milli Məclisin deputatı Kamaləddin Qafarov deyib. O, bildirib ki, Prezidentimizin sözlərində həm siyasi uzaqgörənlik, həm də regional əməkdaşlığa verilən yüksək dəyər aydın şəkildə hiss olunur. "Dövlətimizin başçısı Qazaxıstanın inkişafını və Prezident Kasım-Jomart Tokayevin modernləşmə siyasətini yüksək qiymətləndirərək bildirdi ki, Qazaxıstan bu gün regionda etibarlı tərəfdaş, müstəqil siyasət yürüdən güclü dövlət kimi möhkəmlənib. Cənab Prezidentin bu fikirləri, əslində, Türk dünyasında qarşılıqlı hörmət və bərabərhüquqlu əməkdaşlıq modelinin möhkəmlənməsinə verdiyi töhfədir".

Millət vəkili qeyd edib ki, Azərbaycan-Qazaxıstan münasibətləri sadəcə siyasi yaxınlıq deyil, həm də bu proses dərin mənəvi bağlara söykənir: "Cənab Prezident İlham Əliyev öz çıxışında vurğuladı ki, ən çətin dövrlərdə Azərbaycan həmişə Qazaxıstanın dəstəyini hiss edib. Bu, xalqlarımızın dostluğunun söz yox, əməl üzərində qurulduğunu göstərir.

Dövlətimizin başçısının çıxışında sülh mövzusu da mühüm yer tutur. Cənab Prezident Ermənistanla münasibətlərin normallaşması istiqamətində atılan addımların səmimiliyini və praktiki nəticələrini diqqətə çatdırdı. Qazaxıstanın Ermənistana taxıl tranziti buna real nümunədir. Azərbaycan bu addımı atmaqla sülhün kağız üzərində deyil, real həyatda da təcəssüm tapmasına şərait yaradıb. Dövlət başçısının fikrincə, Azərbaycan və Qazaxıstan arasında əməkdaşlıq artıq regional deyil, qlobal əhəmiyyət kəsb edir. Orta Dəhliz, Zəngəzur dəhlizi kimi layihələr həm iqtisadi inteqrasiyanı, həm də siyasi sabitliyi möhkəmləndirəcək. Beləliklə, cənab Prezident İlham Əliyevin bəyanatı qardaşlıq, əməkdaşlıq və sülh fəlsəfəsini özündə birləşdirən mühüm siyasi sənəddir. Bu çıxış Azərbaycanın regionda sabitlik, tərəfdaşlıq və inkişaf xəttinə sadiqliyinin bariz nümunəsidir".

# Abel Məhərrəmovun həbs xofu

## Sabiq deputat-rektor "Ramiz Mehdiyev işi"nə görə təlaş içindədir

***Ötən həftə dövlətə xəyanət, hakimiyyəti zorla ələ keçirməyə yönələn hərəkətlər və çirkli pulların yuyulması kimi xüsusilə ağır cinayətlərdə ittiham olunan Ramiz Mehdiyevlə yaxın əlaqədə olmuş, onun sayəsində karyera yüksəlişi yaşamış şəxslər ciddi narahatlıq yaşayırlar. Buna səbəb isə onların da cinayət məsuliyyətinə cəlb edilmə ehtimalının kifayət qədər yüksək olmasıdır. Sözügedən şəxslərin bir çoxu Azərbaycan cəmiyyətində korrupsioner imicinə sahibdirlər və qaranlıq yollarla ağlasığmaz sərvət sahibinə çevriliblər.***

"Ramiz Mehdiyev işi" səbəbindən təlaşlanan fiqurlar arasında Bakı Dövlət Universitetinin sabiq rektoru və keçmiş deputat Abel Məhərrəmov da var. Məhərrəmovun Mehdiyevlə bağlılığına dair son günlər bir-birindən maraqlı faktlar ortaya çıxmaqdadır. Məsələn, eks-deputat Gülər Əhmədova (Mikayılqızı) Bakıvaxtı.az-a açıqlamasında bildirib ki, Abel müəllimin milyonlarla manatlıq sərvətə, şadlıq saraylarına və xarici ölkələrdəki mülklərə sahib olması onun elmi fəaliyyətindən çox, illərlə qurulmuş münasibətlər şəbəkəsinin nəticəsidir. Onun sözlərinə görə, əslən Amasiya rayonundan olan akademik Abel Məhərrəmov illər boyu Ramiz Mehdiyevin ən yaxın çevrəsində olub. 19 il Bakı Dövlət Universitetinin rektoru vəzifəsini icra edən Abel Məhərrəmov bu müddətdə özünün və ailəsinin "uğurlu" gələcəyini təmin etmişdi. Sitat: "2014-cü ildə tələbə Ramilə Kiçiyevanın imtahan zamanı rüşvət istənildiyini deməsi, ardınca isə Məhərrəmovun onu məhkəməyə verməsi yaddaşlardan silinməyib. Cəmiyyət isə yaxşı bilirdi, BDU-da rüşvət faktları gizli sirr deyildi".

Sabiq deputatın təqdim etdiyi məlumatlara görə, Abel Məhərrəmovun və ailəsinin adına qeydiyyatdan keçmiş çoxsaylı obyektlər və bahalı mülklər var: "El Faro Hotel Nabran" - 200 hektar ərazidə, 61 milyon manatlıq istirahət mərkəzi, qızı İzabellanın adına qeydiyyatda.

"Mono Liza" və "İzabella" şadlıq sarayları - Bakının mərkəzində, ümumi dəyəri 35 milyon manatdan çox.

11 SPA idman salonu, "Sahil" ticarət mərkəzində "Ramsey" mağazası, və bahalı avtomobil kolleksiyası - "Lamborghini", "Bentley", "Mercedes AMG", "BMW X6", "Audi Q8" və digərləri.

Mülklər - Binəqədi, Quba, Xızı, Nabran, Şüvəlan, Mərdəkan, həmçinin AMEA yaxınlığında və Şərifzadə küçəsində yerləşən villalar, "Qlobus" uşaq bağçası və bir neçə restoran.

Bütün bu sərvətin kökü hara gedib çıxır? Cavab çoxlarına məlumdur - Ramiz Mehdiyevin uzun illər ərzində qurduğu "akademik şəbəkə"yə... Sabah Abel Məhərrəmov da çıxıb "Ramiz Mehdiyev bizə qarşı ədalətsizlik etdi" desə, inanmayın. Çünki o, Ramizin kölgəsində böyüyən və o kölgə altında milyarderə çevrilən "elm adamı" idi".

Xatırladaq ki, 2020-ci ilin avqustunda, ölkədə koronavirus pandemiyası səbəbindən sərt qadağaların mövcud olduğu bir vaxtda Ramiz Mehdiyevin nəvəsinə toy mərasimi keçirdiyi məlum olmuş və həmin toydan videokadrlar yayılmışdı. Bu görüntülərdə Abel Məhərrəmovun öz himayədarına - Mehdiyevə "yağlı" bir tost dediyi xüsusilə diqqət çəkmişdi: "Ramiz müəllim, biz sizin xidmətlərinizi çox böyük qiymətləndiririk. Çox böyük! Nəinki biz. Biz kimik ki? Xırda adamlarıq. Xalqımız çox böyük qiymətləndirir. Bu uğurlarımızın həyata keçirilməsində taktiki addımlara siz rəhbərlik etmisiniz".

"Xırda adam" - Məhərrəmov həmin sağlıqla Mehdiyevin onu necə "böyütdüyünü" bir növ etiraf edirdi, qazandığı uğurlarda "boz kardinal"ın "taktiki addımlarla rəhbərliyinin" rolunu vurğulayırdı. Əslində təəccüblü deyil: onun hər hansı ciddi elmi nailiyyətləri, təhsil idarəetməsi sahəsində xüsusi təcrübəsi olmadığı halda birdən-birə ölkənin ilk və ən böyük ali təhsil müəssisəsinin rəhbərliyinə gətirilməsi Mehdiyevsiz necə mümkün ola bilərdi? Yaxud BDU rektoru təyin edildikdən bir müddət sonra burada rüşvət və korrupsiyanı çiçəkləndirən, nəticədə görünməmiş dərəcədə oliqarxlaşan və cəmiyyətdə mənfi reputasiyasını hər gün daha da gücləndirən biri 2005-2015-ci illərdə Milli Məclisə mandat qazanmağı Mehdiyevin himayədarlığı olmadan necə bacarardı? Biz hələ onun qalmaqallı şəkildə işdən qovulmasını demirik. Xatırladaq ki, 2018-ci ilin noyabrında Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə başda olmaqla geniş tərkibli Azərbaycan nümayəndə heyəti xüsusi reyslə İspaniyanın paytaxtı Madrid şəhərinə yola düşmüşdü. Məqsəd bu ölkədə dini tolerantlıq mövzusunda keçiriləcək beynəlxalq konfransda iştirak etmək olub. Nümayəndə heyətindəki adının çəkilməsini istəməyən şəxslərdən birinin verdiyi məlumata görə, səfər başlanğıcdan sona qədər Məhərrəmovun "maraqlı macəraları" ilə zəngin olub. Məsələn, Airbus-319A təyyarəsi ilə uçmağa hazırlaşan nümayəndə heyəti öz yerini tutduqdan sonra təyyarə 2 saata qədər havaya qalxa bilməyib. Buna səbəb isə nümayəndə heyətinin tərkibində yer alan BDU-nun rektoru, akademik Abel Məhərrəmovun 2 tonluq baqajı olub. Səfər iştirakçıları noyabrın 10-da Madriddən qayıdanda da eyni hadisə ilə üzləşiblər. Yalnız A.Məhərrəmova və onun həmin vaxt ölkəmizin İspaniya Krallığındakı səfir işləyən oğluna məxsus 2 tona qədər yük boşaldıldıqdan sonra təyyarənin uçuşuna icazə verilib. Ən əsası, yük adi yol çemodanları yox, hörmətli akademikin və onun səfir oğlunun şərab biznesinə aid çəlləklər imiş. Sən demə, şərab dolu çəlləklər kontrabanda yolu ilə Azərbaycandan İspaniyaya aparılır və orada şüşələrə doldurularaq qeyri-qanuni şəkildə geri qaytarılır. Sonra isə ispan şərabı adı ilə A.Məhərrəmova məxsus şadlıq evlərində, restoranlarda və digər ticarət nöqtələrində satılır.



Həmin vaxt bu biabırçılıq ortaya çıxınca Abel müəllim vəzifədən azad edilmiş, lakin hüquqi məsuliyyətdən qurtula bilmişdi. İddialar belədir ki, Mehdiyev bu dəfə də onu öz qanadları altına almış, Məhərrəmovu daha ağır cəzadan xilas etmişdi. Bununla da kifayətlənməyərək, sabiq rektor-deputatın İspaniya krallığındakı səfir postundan geri çağrılan oğlunun bir müddət sonra başqa bir ölkəyə - Estoniyaya səfir göndərilməsinə nail olmuşdu.

Bütün bunların fonunda Abel müəllimin müxtəlif vaxtlarda Mehdiyevə "yağlı" tostlar deməsi də, onun kimlər tərəfindənsə yazılmış cızmaqaralarını "son dərəcə səlis, axıcı, zəngin və orijinal bir üsulda yazılan, dərin elmi-fəlsəfi məzmunlu" əsərlər adlandırması da, "boz kardinal"ı " yeni dünya nizamının reallığını düzgün müəyyənləşdirən, ölkənin gələcək inkişafı ilə bağlı yetkin elmi-konseptual baxışlara malik siyasətçi və dövlət xadimi, filosof" kimi qələmə verməsi də təəccüblü deyil.

İndi isə Məhərrəmov tamamilə fərqli əhval-ruhiyyədədir: ona layiq olmadığı karyera yüksəlişi yaşadan və çirkli var-dövlət sahibinə çevirən himayədarı cinayət məsuliyyətinə cəlb edilib, sabiq deputat-rektor isə Mehdiyevin cinayətkar və xəyanətkar şəbəkəsinin bir parçası olaraq özünün də qanunsuz əməllərinə görə cavab verməli olacağından qorxur...

***Toğrul Əliyev***



# Azərbaycanla Ermənistan sülhün bir addımlığında: Danışıqlar müxtəlif müstəvilərdə davam edir



Aydın Mirzəzadə: "Ölkələr sülh müqaviləsi imzalanmasına doğru çox ciddi addımlar atırlar və burada Azərbaycan nümunə göstərir"



Məhəmməd Əsədullazadə: "Azərbaycan və Ermənistan arasında de-fakto sülhə nail olunduğunu söyləmək mümkündür"

***Vaşinqton razılaşmasından sonra Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanması istiqamətində proseslər davam edir. Artıq müxtəlif istiqamətlərdə danışıqlar prosesi intensivləşdirilib.***

Bu günlərdə Azərbaycan prezidenti İlham Əliyevin Qazaxıstan taxılının Ermənistana tranzit daşınmasına icazə verməsi də bu istiqamətdə atılan mühüm addımlardan biridir. Belə ki, Qazaxıstan məhsulları Bakı-Aktau xətti vasitəsilə Azərbaycanın ərazisindən keçərək Ermənistana çatdırılacaq. Prezident İlham Əliyev bu qərarla sülhün təkcə kağız üzərində deyil, praktik müstəvidə reallaşdığını vurğulayıb.

Ermənistan Baş naziri Nikol Paşinyan da bu addıma görə Azərbaycan prezidentinə təşəkkürünü bildirib.

Bu barədə fikirlərini bizmlə bölüşən Milli Cəbhə Partiyasının sədr müavini, politoloq Məhəmməd Əsədullazadə hesab edir ki, qarşılıqlı jest olaraq, Ermənistan Türkiyədən Azərbaycana gedən TIR-ların öz ərazisindən keçməsinə icazə verib. Bununla da iki ölkə arasında beynəlxalq nəqliyyat əlaqələrinin faktiki bərpası reallaşır: "Azərbaycanın bu qərarı regionda iqtisadi inteqrasiyanın və qarşılıqlı etimadın güclənməsinə xidmət etməklə yanaşı, Ermənistan daxilində də mühüm siyasi nəticələr doğuracaq. Seçkilər ərəfəsində bu addım Paşinyanın mövqelərini möhkəmləndirə bilər. Qeyd edim ki, Rusiya Ermənistan daxilində hakimiyyət dəyişikliyi üçün müxalifətə dəstək verməklə sülh prosesini pozmağa çalışır. Lakin Azərbaycanın bu diplomatik və iqtisadi addımı Moskvanın bölgədəki təsir imkanlarını ciddi şəkildə zəiflədə bilər. Azərbaycan və Ermənistan arasında de-fakto sülhə nail olunduğunu söyləmək mümkündür. İki ölkənin qarşılıqlı şəkildə nəqliyyat blokadasını aradan qaldırması, regional iqtisadi əlaqələrin genişlənməsinə və Cənubi Qafqazda sabitliyin təmin olunmasına yeni imkanlar açır".

Oktyabrın 22-də Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan İrəvanda Ermənistan və Azərbaycan vətəndaş cəmiyyəti nümayəndələrinin iştirakı ilə keçirilən ikitərəfli dəyirmi masanın iştirakçıları ilə görüşüb. Bu barədə Ermənistan Təhlükəsizlik Şurasının ofisi məlumat yayıb. Armen Qriqoryan belə görüşlərin keçirilməsini Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması prosesinin tərkib hissəsi kimi qiymətləndirərək, belə formatların insanlar arasında müsbət təmasların qurulmasına töhfə verdiyini vurğulayıb. O qeyd edib ki, cəmiyyətin müxtəlif təbəqələrinin işə cəlb olunması yalnız sülhü möhkəmləndirəcək. Azərbaycanın vətəndaş cəmiyyəti nümayəndələri də öz növbəsində tədbirin təşkilinə və müsbət atmosfer yaratdıqlarına görə erməni tərəfinə təşəkkür ediblər.

İştirakçılar qarşılıqlı etimadın və əməkdaşlığın möhkəmləndirilməsinə yönəlmiş bu cür təşəbbüslərin davam etdirilməsinin vacibliyini vurğulayıblar. İclasın ikinci hissəsində Təhlükəsizlik Şurasının katibi iştirakçıların suallarını cavablandırıb.

Bu barədə "Unikal"a açıqlamasında deputat Aydın Mirzəzadə deyib ki, vətəndaş cəmiyyəti nümayəndələrinin görüşü iki ölkə arasındakı münasibətlərin istiləşdirilməsi istiqamətində növbəti əhəmiyyətli addımdır. O bildirib ki, bu görüşdən başqa Azərbaycan ərazisindən Ermənistana gedən taxıl dolu qatarların buraxılması vacib hadisə hesab edilə bilər: "Ölkələr sülh müqaviləsi imzalanmasına doğru çox ciddi addımlar atırlar və burada Azərbaycan nümunə göstərir. Son söz Ermənistanındır. Əgər Azərbaycanla doğurdan da normal qonşuluq münasibətləri yaratmaq istəyirsə, öz konstitusiyasından müvafiq bəndi çıxarmalıdır. Eyni zamanda Azərbaycana qarşı ikili mövqeyindən birmənalı şəkildə əl çəkməlidir. Belə olduğu halda vətəndaş cəmiyyəti xətti ilə, parlamentlərarası və ziyalılar arasında humanitar əlaqələri bundan sonra daha da genişləndirmək olar".

Məlum olduğu kimi, bu günlərdə Azərbaycan Milli Məclisinin sədri Sahibə Qafarova və Ermənistan parlamentinin spikeri Alen Simonyan arasında görüş keçirilib. Görüş Cenevrə şəhərində Parlamentlərarası İttifaqın 151-ci Assambleyası çərçivəsində baş tutub. Belə ki, aparılan müzakirələrdə spikerlər Vaşinqton sammitində əldə olunmuş razılaşmaları və münasibətlərin normallaşması üzrə görülən tədbirləri alqışlayıblar. Spikerlər konstruktiv dialoqun davam etdirilməsinin vacibliyini qeyd edərək, parlamentlər səviyyəsində etimadın möhkəmləndirilməsi tədbirlərini dəstəkləməyə hazır olduqlarını bildiriblər.

Milli Məclisin deputatı Ceyhun Məmmədov baş tutan görüşlə bağlı Bakıvaxtı.az-a açıqlamasında bildirib ki, Azərbaycanla Ermənistan arasında sülh danışıqları bu gün də davam edir və əsas məqsəd bölgəyə sülhün gəlməsidir. Onun sözlərinə görə, hər iki ölkə lideri bu istiqamətdə səylərini əsirgəmir və prosesə öz töhfələrini verməyə çalışırlar. ABŞ-də çox vacib və mühüm bir görüşün keçirildiyini xatırladan deputat hesab edir ki, danışıqlar mütləq davam etməlidir: "Dövlət başçılarının görüşləri ilə yanaşı, parlament sədrlərinin və digər rəsmilərin görüşləri də xüsusi önəm daşıyır. Bu, sülh prosesinin davamı kimi qiymətləndirilməli və bölgədə sülhün bərqərar olması istiqamətində atılmış mühüm addım hesab edilməlidir".

Ceyhun Məmmədov əlavə edib ki, bu, parlament sədrləri arasında ilk görüş deyil. Müsahibimiz nəzərə çatdırıb ki, əvvəllər də belə görüşlər baş tutub və hazırkı görüş də sülhə doğru çox vacib bir addım kimi dəyərləndirilməlidir: "İki ölkə parlamentlərinin bir araya gəlməsi, dialoqun davam etdirilməsi və bu istiqamətdə atılan addımlar regionda sabitliyin və qarşılıqlı etimadın formalaşması baxımından əhəmiyyətlidir".

*Seymur Əli*



## Müstəqilliyimizin Bərpası Günü Edinburqda qeyd olunub

***Şotlandiyanın Edinburq Universitetində fəaliyyət göstərən Azərbaycan Cəmiyyəti 18 Oktyabr - Müstəqilliyin Bərpası Günü münasibətilə tədbir təşkil edib.***

"Unikal" xəbər verir ki, iştirakçılara Azərbaycanın dövlət müstəqilliyinin tarixi, milli kimlik və mədəniyyətin qorunması istiqamətində atılan addımlar barədə ətraflı məlumat verilib. 1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsinin xalqımız üçün necə mühüm tarixi əhəmiyyət daşıdığı vurğulanıb. Tədbir səmimi və əyləncəli mühitdə keçib, iştirakçılar arasında maraqlı söhbətlər, fikir mübadiləsi və hədiyyələrlə dolu xoş anlar yaşanıb.

Azərbaycan Cəmiyyətinin rəhbəri Elmar Əmirov belə tədbirlərin xaricdə yaşayan gənc soydaşlarımızın milli kimliyinin qorunub saxlanmasında və ölkəmizə bağlılıqlarının möhkəmlənməsində mühüm rol oynadığını qeyd edib.

Tədbirdə Edinburq Universitetində fəaliyyət göstərən Türk Cəmiyyəti və Mərkəzi Asiya Türk Cəmiyyətlərinin üzvləri də iştirak ediblər. Bu, tədbirin daha geniş mədəni əməkdaşlıq və qarşılıqlı anlaşma mühitində keçirilməsinə zəmin yaradıb.

## Bu televiziyalara ayrılan vəsait azalır

***Gələn il "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinə, İctimai Televiziya və Radio Yayımları Şirkətinə və "Mir" Dövlətlərarası Teleradio Şirkəti Azərbaycan Milli Nümayəndəliyinə ayrılan vəsaitin həcmi açıqlanıb.***




"Unikal" xəbər verir ki, bu, "Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsində öz əksini tapıb.

Dövlət büdcəsində bu fəaliyyətin təmin olunması məqsədilə 64,8 milyon manat vəsait nəzərdə tutulub.

Qeyd edək ki, bu, 2025-ci ilin büdcəsi ilə müqayisədə 0,5% azdır. Ötən il 65,1 milyon manat vəsait ayrılıb.

# İlham Əliyev Viktor Orbanı təbrik etdi



***Azərbaycan Prezidenti İlham Əliyev Macarıstanın Baş naziri Viktor Orbana təbrik məktubu ünvanlayıb.***

"Unikal"ın məlumatına görə, təbrikdə deyilir:

"Hörmətli cənab Baş nazir, Macarıstanın milli bayramı münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, ən xoş arzularımı çatdırıram.

Dost ölkə və strateji tərəfdaşımız olan Macarıstanla dövlətlərarası əlaqələrimizin bugünkü səviyyəsi məmnunluq doğurur. Şübhəsiz ki, qarşılıqlı səfərlər, müntəzəm təmaslar, sıx əməkdaşlığımız bu münasibətlərin daha sürətlə inkişafına və möhkəmlənməsinə şərait yaradır.

Hazırda ikitərəfli gündəliyimizdə duran məsələlərin əhatə dairəsi çox genişdir. Sevindirici haldır ki, Azərbaycan ilə Macarıstan arasında əməkdaşlıq gündən-günə dərinləşir, enerji sahəsində səmərəli tərəfdaşlıq münasibətləri yüksələn xətt üzrə inkişaf edir. Siyasi dialoqumuzun intensivliyi bütün sahələrdə qarşılıqlı fəaliyyətimizin yeni məzmunla zənginləşməsində mühüm rol oynayır.

Beynəlxalq təşkilatlar, xüsusilə də Türk Dövlətləri Təşkilatı çərçivəsində qarşılıqlı fəaliyyətimizi ayrıca qeyd etmək istərdim. Bu il ərzində mənim Budapeştdə, Sizin isə Qəbələdə təşkilatın zirvə görüşlərində iştirakımız xalqlarımız və dövlətlərimiz arasında birliyin və həmrəyliyin daha da möhkəmlənməsinə, çoxtərəfli müstəvidə əlaqələrimizin genişlənməsinə verdiyimiz əhəmiyyətin göstəricisidir.

Əminəm ki, Azərbaycan-Macarıstan dostluq münasibətlərinin və strateji tərəfdaşlığının xalqlarımızın iradəsinə uyğun olaraq daha da gücləndirilməsi və dərinləşdirilməsi yolunda birgə səylərimizi bundan sonra da müvəffəqiyyətlə davam etdirəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dövləti fəaliyyətinizdə uğurlar, dost Macarıstan xalqına daim əmin-amanlıq və rifah arzulayıram".

# İcra başçısının oğlu aparat rəhbəri təyin edildi

***Dövlət Turizm Agentliyinə yeni aparat rəhbəri təyin edilib.***

"Unikal" "Qafqazinfo"ya istinadən xəbər verir ki, bu barədə müvafiq əmr imzalanıb.

Aparat rəhbəri postuna Əliyev Kənan Firdovsi oğlu gətirilib. O, hazırkı təyinatadək Birləşmiş Millətlər Ümumdünya Turizm Təşkilatının (UN Tourism) İspaniyanın Madrid şəhərindəki Baş ofisində işləyib.

Qeyd edək ki, K.Əliyev Samux Rayon İcra Hakimiyyətinin başçısı Firdovsi Əliyevin oğludur.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA4005005644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.

Tiraj:2000

# Hərbçilərin ev kirayəsi haqqının ödənilməsinə bu qədər vəsait ayrılacaq

***2026-cı ildə kirayəyə götürülmüş yaşayış sahəsinə görə yaşayış yeri olmayan hərbi qulluqçulara ayrılan vəsaitin həcmi məlum olub.***

"Unikal" xəbər verir ki, bu, "Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsində öz əksini tapıb.

Layihədə qeyd edilib ki, növbəti ilin dövlət büdcəsində kirayəyə götürülmüş yaşayış sahəsinə görə yaşayış yeri olmayan hərbi qulluqçulara (ehtiyatda və istefada olan hərbi qulluqçular da nəzərə alınmaqla) ödənilən pul kompensasiyası üçün 15,5 milyon manat məbləğində vəsait nəzərdə tutulub.

# Onların təhsilhaqlarını gələn il də dövlət ödəyəcək - Siyahı

***Dövlət sifarişi və dövlət hesabına kadr hazırlığının maliyyələşdirilməsi zamanı 2026-cı il üçün proqnozlaşdırılan təhsil xərclərinin 41,8 milyon manatı güzəştli kateqoriyaya aid ediləcək.***



"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının 2026-cı il üzrə büdcə zərfi layihəsində qeyd olunub.

Bu, gələn il də ali məktəblərdə güzəştli kateqoriyadan olan tələbələrin imtiyazlarının qüvvədə saxlanılacağı anlamına gəlir. Həmin kateqoriyaya keçmiş məcburi köçkünlər, valideynini itirmiş və valideyn himayəsindən məhrum olmuş tələbələr, Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü uğrunda həlak olmuş, əlil olmuş şəxslərin övladları olan tələbələr, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etdiyinə görə "Müharibə veteranı" adı almış şəxslər, orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə, habelə 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər, şəhid ailəsinin üzvü olan, eləcə də peşə təhsili müəssisələrində 20 yaşına çatmamış və orqanizmin funksiyaları 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş valideyni olan, aylıq gəliri yaşayış minimumundan aşağı olan şəxslər daxildir.

Ümumilikdə gələn il yuxarıda adları çəkilən güzəştli kateqoriyadan olan 18,5 min nəfər tələbənin müvafiq olaraq təhsil və təqaüd xərcləri 41,8 milyon manat sərf olunacaq;

- əhalinin aztəminatlı təbəqəsinin ali təhsilə əlçatanlığını daha da artırmaq və ali təhsilin əhatə dairəsini genişləndirmək məqsədilə təhsil tələbə kreditinin verilməsi və təhsil sahəsində rəqabətli maliyyələşmə və idarəetmə mexanizmlərinin yaradılması və tətbiqi üçün növbəti ilin dövlət büdcəsində 15,0 milyon manat vəsait nəzərdə tutulub.

Əvvəlki illərdə ayrılmış vəsaitlər də nəzərə alındıqda, ümumilikdə Təhsil Tələbə Kredit Fondunun resurs zərfi 141,0 milyon manat təşkil edəcək;

- müvafiq tədris illərində 5 yaşlı 87,0 min nəfər uşağın məktəbəhazırlıq təhsili ilə əhatə olunması ilə bağlı xərclərə 37,4 milyon manat;

- Azərbaycan Respublikasının ümumtəhsil məktəblərində oxuyan şagirdlərin 2026/2027-ci tədris ilində 300-dən çox adda təqribən 7,7 milyon nüsxə pulsuz dərsliklərlə təmin olunması və metodiki vəsaitlərin alınması ilə bağlı xərclərə 19,0 milyon manat;

- xüsusi təhsilə cəlb olunan 13412 nəfərin valideynlərinə və ya qanuni nümayəndələrinə uşaqlarını xüsusi təhsil müəssisələrinə, sağlamlıq və reabilitasiya mərkəzlərinə və tibb müəssisələrinə aparıb-gətirmək üçün aylıq müavinət üçün 8,1 milyon manat;

- pedaqoji profilli ali və orta ixtisas təhsil müəssisələrini bitirmiş 9,9 min nəfərdən çox gənc mütəxəssisin kənd rayonlarında yerləşən ümumtəhsil müəssisələrinə işə cəlb olunmalarının stimullaşdırılması məqsədilə onların yol, əmlakın daşınması üçün nəqliyyat, ilkin yaşayış şəraitinin yaradılması, kommunal xidmətləri və yaşayış yerinin kirayə haqqı üzrə verilən kompensasiyanın və aylıq əməkhaqqına əlavənin ödənilməsi üçün 20,1 milyon manat;

- Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılmasının genişləndirilməsi ilə bağlı xərclər üçün 38,3 milyon manat vəsait proqnozlaşdırılıb.

Dövlət dəstəyi olaraq bəzi ali təhsil müəssisələrinin xərclərinin qismən qarşılanması üçün 2026-cı ilin dövlət büdcəsində 100,1 milyon manat məbləğində subsidiya nəzərdə tutulub ki, bu da cari illə müqayisədə 4,0 milyon manat və ya 4,1 faiz çoxdur.

# 2026-cı ildə azad olunmuş ərazilərə ayrılacaq vəsait məlum oldu

***Gələn il dövlət büdcəsindən işğaldan azad olunmuş ərazilərə nə qədər vəsaitin ayrılacağı məlum olub.***



"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının 2026-cı il üzrə büdcə zərfi layihəsində qeyd olunub.

"İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdışın təmin edilməsi, şəhər və kəndlərin yenidən qurulması və bərpası, həmin ərazilərdə müasir infrastrukturların yaradılması (elektrik enerjisi, təbii qaz, su, rabitə, yol, təhsil, səhiyyə, mədəniyyət, mənzil-kommunal və digər zəruri infrastrukturların və mədəni-tarixi abidələrin bərpası və yenidən qurulması, yaşayış evlərinin tikintisi və s.) məqsədilə 2026-cı ilin dövlət büdcəsində 3500,0 milyon manat məbləğində vəsait nəzərdə tutulmuşdur", - deyə büdcə zərfi layihəsində bildirilib.

# Azərbaycanda müəllimlərin maaşı artacaq

***2025-ci il üçün təhsilverənlərin sertifikatlaşdırılması prosesi və müsahibə mərhələsi başa çatıb.***

"Unikal" xəbər verir ki, bu barədə Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyindən məlumat verilib.

Belə ki, sertifikasiya imtahanında iştirak edən müəllimlərdən 6628 nəfər 51 və yuxarı bal toplayıb. Qeyd olunan nəticəni göstərən müəllimlərin maaşlarına 35 faiz artım əlavə olunacaq. Bundan əlavə, 11 min 316 nəfər iştirakçı 30-50 bal aralığında nəticə göstərib, həmin müəllimlərin maaşlarına isə 10 faiz artım əlavə olunacaq. Qeyd edilib ki, test və müsahibə mərhələsində uğur qazanmayan və ya iştirak etməyən 3129 müəllim üçün təlimlər təşkil ediləcək.



40_27 IYUI-QARA.qxd 10/23/2025 9:12 PM Page 6



# Gələn il bütün növ əmək pensiyaları artırılacaq



***"Əmək pensiyaları haqqında" qanuna əsasən, hər il əmək pensiyaları əvvəlki ildə orta aylıq əməkhaqqındakı artım faizinə uyğun olaraq indeksləşdirilərək artırılır".***

Bunu "Unikal"a açıqlamasında deputat Vüqar Bayramov deyib. O bildirib ki, 2026-cı ilin yanvar ayında da əmək pensiyaları indeksləşdirilərək artırılacaq.

"Bu, bütün növ əmək pensiyalarını əhatə edəcək. 1 milyon 100 min vətəndaşımızın əmək pensiyalarında artımlar olacaq. Həm yaşa, həm əlilliyə, həm də valideynlərini itirməyə görə əmək pensiyası alan vətəndaşlarımızın pensiya məbləğləri artırılacaq. Təbii ki, pensiya məbləğlərindəki artımlar orta pensiya məbləğinə təsir göstərir. Bu baxımdan gözlənilir ki, 2026-cı ildə orta pensiya məbləği 2025-ci illə müqayisədə artacaq.

Əmək pensiyalarının indeksləşdirilməsi ilə bağlı xərclər nəzərdə tutulduğundan qanunvericiliyin tələbi olduğuna görə bu, növbəti ilin yanvar ayında reallaşacaq. Bu, həm orta pensiyanın, həm də median pensiyanın məbləğinin artmasına imkan verəcək. Növbəti il orta pensiya məbləğlərində artımların olacağı proqnozlaşdırılır ki, bu da birbaşa bütün növ əmək pensiyalarının indeksləşdirilərək artırılması ilə bağlıdır".

Qeyd edək ki, 2026-cı ildə orta pensiya məbləğinin 2025-ci ildə gözlənilən 537,0 manat məbləğindən təqribən 7,9 faiz artmaqla 579,2 manat ətrafında məbləğ təşkil edəcəyi proqnozlaşdırılır.

***Anar Kəlbiyev***

# Baş nazir dərmanlarla bağlı qərar imzaladı

***"Dərman vasitələrinin beynəlxalq patentləşdirilməmiş adlarının (təsiredici maddələrin adlarının) və tibb vasitələrinin xidmətlər zərfinə daxil edilməsi və ya çıxarılması meyarları və Qaydası" təsdiq edilib.***



"Unikal" xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov qərar imzalayıb. Qərara əsasən, aşağıdakı meyarlardan hər birinə cavab verən dərman vasitələrinin beynəlxalq patentləşdirilməmiş adları (təsiredici maddələrin adları) xidmətlər zərfinə daxil edilir:

- rəsmi statistik göstəricilərə əsasən son 5 (beş) il müddətində əhalinin ölüm və (və ya) əlillik faizi yüksək olan və (və ya) sayında davamlı artım müşahidə olunan xəstəliklərin və sağlamlığın pozulması ilə bağlı digər vəziyyətlərin farmakoterapevtik müalicəsində və ya xidmətlər zərfində qeyd edilən tibbi xidmətlərin həyata keçirilməsində istifadə olunması;
- farmakoterapevtik müalicənin dəyərinin rəsmi statistik göstəricilərə əsasən son 5 (beş) il müddətində həmin farmakoterapevtik müalicəyə ehtiyacı olan şəxslərin sayı nəzərə alınmaqla, icbari tibbi sığorta fondunun maliyyə imkanlarına mütənasibliyi;
- farmakoterapevtik müalicənin sübutlu təbabət prinsiplərinə uyğunluğu;
- İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına üzv olan ölkələrdə sığorta təminatında olması;
- klinik protokollarda mövcudluğu;
- effektiv və təhlükəsiz olması.

Dərman vasitələrinin beynəlxalq patentləşdirilməmiş adlarının (təsiredici maddələrin adlarının) xidmətlər zərfindən çıxarılması meyarları aşağıdakılardır:

- yeni və səmərəli farmakoterapevtik müalicə üsullarının tətbiqi;
- Azərbaycan Respublikasında tətbiqinin qadağan edilməsi;
- bu sənədlə müəyyən edilən meyarlardan ən azı biri ilə uyğunsuzluğu.

Aşağıdakı meyarlardan hər birinə cavab verən tibb vasitələri xidmətlər zərfinə daxil edilir:

- xidmətlər zərfində qeyd edilən tibbi xidmətlərin həyata keçirilməsində istifadə olunması;
- tibb vasitəsinin sübutlu təbabət prinsiplərinə uyğunluğu;
- tibb vasitəsinin effektiv və təhlükəsiz olması.

Tibb vasitələrinin xidmətlər zərfindən çıxarılması meyarları aşağıdakılardır:

- yeni və səmərəli tibb vasitəsinin tətbiqi;
- tibb vasitəsinin Azərbaycan Respublikasında tətbiqinin qadağan edilməsi;
- tibb vasitəsinin bu sənədlə müəyyən edilən meyarlardan ən azı biri ilə uyğunsuzluğu.

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən bu Sənədin 2-ci hissəsində qeyd olunan meyarlara uyğunluğu baxımından dərman vasitələrinin beynəlxalq patentləşdirilməmiş adları (təsiredici maddələrin adları) və tibb vasitələri 5 (beş) ildə bir dəfədən az olmayaraq təhlil olunur və əsaslandırılmış təklif təqdim olunması barədə qərar verilir. Dərman vasitələrinin beynəlxalq patentləşdirilməmiş adlarının (təsiredici maddələrin adlarının) və tibb vasitələrinin xidmətlər zərfinə daxil edilməsi və ya dərman vasitələrinin beynəlxalq patentləşdirilməmiş adlarının (təsiredici maddələrin adlarının) və tibb vasitələrinin xidmətlər zərfindən çıxarılmasına dair Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarının layihəsi İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun tələblərinə uyğun hazırlanır və Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilir.



# Media subyektləri daha 3 il vergiyə cəlb olunmayacaq

***Azərbaycanda media subyektləri üçün vergi güzəştinin müddəti daha 3 il uzadılır.***

"Unikal" xəbər verir ki, bu, "Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsində qeyd olunub.

Qeyd edək ki, media subyektləri üçün 3 illik vergi güzəştinin müddəti 2026-cı il yanvarın 1-də başa çatırdı. Beləliklə, bu müddət daha 3 il uzadılır.

Əlavə edək ki, 2026-cı ildə gələn il televiziya, radio və nəşriyyat sahəsinə 78 721 874 (78 milyon 721 min 874 manat) ayrılması proqnozlaşdırılır.

# Milli Qəhrəman Şükür Həmidovun anım mərasimi keçirilib

***22 oktyabr 2025-ci il tarixdə "Konstitusiya və Suverenlik İli" çərçivəsində Qubadlı Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Bakı şəhər II Fəxri Xiyabanda, 27 sentyabr 2020-ci il tarixində başlanmış Vətən müharibəsində torpaqlarımızın azadlığı uğrunda igidlik göstərən Azərbaycanın Milli Qəhrəmanı polkovnik Həmidov Şükür Nəriman oğlunun anım günü ilə əlaqədar tədbir keçirilib.***

"Unikal" xəbər verir ki, tədbirdə Qubadlı Rayon İcra Hakimiyyəti başçısının müavini Allahverdi Haxverdiyev, Qubadlı rayon Prokuroru Emil Kərimov, YAP Qubadlı rayon təşkilatının sədri Təhmasib Rüstəmov, Müdafiə Nazirliyinin əməkdaşı polkovnik Elşad Əbilov, RİH-in məsul işçiləri, idarə, müəssisə, təşkilat rəhbərləri, Müharibə veteranları, Qazilər, döyüş yoldaşları, şəhidimizin ailə üzvləri, yaxınları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbir iştirakçıları əvvəlcə torpaqlarımızın bütövlüyü uğrunda canından keçmiş vətən oğullarının xatirəsini bir dəqiqəlik sükutla yad ediblər. Şəhidimizin ziyarətinə gələnlər məzarı üzərinə gül dəstələri qoyublar. Şəhidimizin ruhuna dualar oxunulub.

# MEDİA və "Euronews"un birgə təlim proqramı başlayır

***Medianın İnkişafı Agentliyi (MEDİA) və "Euronews" telekanalının birgə əməkdaşlığı çərçivəsində "Euronews Academy"nin "TV və canlı jurnalistika" mövzusunda təlim proqramı fəaliyyətə başlayır.***

"Unikal" xəbər verir ki, bu barədə MEDİA məlumat yayıb. İngilis dilində tədris olunacaq təlimdə iştirak üçün gənc jurnalistlər, jurnalistika və kommunikasiya ixtisası üzrə təhsil alan, həmçinin media sahəsinə marağı olan sonuncu kurs bakalavr və magistratura pilləsi tələbələri müraciət edə bilərlər.

Təlimlər "Euronews" telekanalının televiziya yayımı sahəsində böyük təcrübəyə malik mütəxəssisləri - "Euronews"un Astana bürosunun rəhbəri Bojan Brkiç və "Euronews"un Avropa İttifaqı üzrə baş müxbiri Sergio Kantonenin iştirakı ilə keçiriləcək.

Cari ilin noyabr ayının ikinci həftəsini əhatə edən layihə çərçivəsində "Televiziya xəbərlərinin hazırlanması", "Televiziya reportajları və canlı yayım", "Xəbər istehsalı (yayıma hazırlıq)", "Kamera qarşısında danışmaq" və "Müsahibə" modulları istiqamətində tədris prosesi təşkil olunacaq.

Qeyd edək ki, kursu uğurla başa vuran iştirakçılara sertifikat təqdim olunacaq.

Təlim proqramına müraciət qəbulu 1 noyabr 2025-ci il 18:00 tarixinədək davam edəcəkdir.

40_27 IYUI-QARA.qxd 10/23/2025 9:13 PM Page 7





## Azərbaycanda siyasi partiyalara ayrılacaq vəsait açıqlandı

***Gələn il deputatları Milli Məclisdə təmsil olunan siyasi partiyalara nə qədər vəsaitin ayrılacağı açıqlanıb.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının 2026-cı il üzrə büdcə zərfi layihəsində qeyd olunub.

2026-cı ildə VII çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının təmsil etdikləri siyasi partiyaların fəaliyyətinin maliyyələşdirilməsi üçün 6,0 milyon manat vəsait nəzərdə tutulub.

## Bir sıra məhsullar ƏDV-dən azad edilir

***Növbəti il kənd təsərrüfatı məhsulları istehsalçılarının gübrələrə əlçatanlığının artırılması, əhalinin ekoloji təmiz kənd təsərrüfatı məhsulları ilə təminatının gücləndirilməsi məqsədilə mineral gübrələrlə yanaşı orqanomineral gübrələrin satışının, xammal kimi istifadə edilməsi məqsədilə mineral və orqanomineral gübrələrin idxalının da ƏDV-dən azad edilməsi planlaşdırılır.***

"Unikal" xəbər verir ki, bu, 2026-cı ilin büdcə zərfinin layihəsində öz əksini tapıb.

## Orta aylıq əməkhaqqı bu qədər olacaq

***2026-cı il üzrə orta aylıq əməkhaqqı göstəricisi 1170,8 manat təşkil edəcək.***

"Unikal" xəbər verir ki, bu, "Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsində öz əksini tapıb.

Bildirilib ki, Dövlət Statistika Komitəsinin rəsmi internet səhifəsində 2025-ci ilin yanvar-may ayları üzrə açıqlanmış aylıq makroiqtisadi göstəricilər barədə rəsmi statistik məlumata əsasən bu göstərici 1095,0 manat (və ya əvvəlki ilin müvafiq dövrünün göstəricisi ilə müqayisədə 9,1 faiz çox) təşkil edib ki, bu da cari vəziyyətdə 2026-cı il üzrə orta aylıq əməkhaqqı göstəricisinin 1170,8 manat təşkil etməsi barədə gözləntilərin əsaslı olduğunu deməyə imkan verir.

## Evlərini kirayə verənlərdən vergi tutulacaq

***Fiziki şəxslərə məxsus yaşayış sahələrinin fiziki şəxslərə kirayəyə verilməsindən əldə olunan gəlirlər vergiyə cəlb olunacaq.***

"Unikal" xəbər verir ki, bu, "Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsində öz əksini tapıb.

Layihəyə əsasən, fiziki şəxslərə məxsus yaşayış sahələrinin (mehmanxanalar və mehmanxana tipli obyektlərdə yerləşən yerləşmə vasitələri istisna olmaqla) fiziki şəxslərə kirayəyə verilməsindən əldə olunan gəlirlərdən ödəmə mənbəyində 10 faiz dərəcə ilə vergi tutulacaq.

# "Azərbaycan və Ermənistan arasında de-fakto sülh bərqərar olub"

### Fərhad Məmmədov: "Sülh sazişinə gəlincə, o elə bir məsələdir ki, dövlətlər arasında münasibətlərin çərçivəsini müəyyənləşdirir"

***Cənubi Qafqaz Tədqiqatlar Mərkəzinin direktoru, politoloq Fərhad Məmmədov "Unikal"a müsahibə verib. O, Azərbaycan və Ermənistanın vətəndaş cəmiyyəti nümayəndələrinin İrəvanda keçirilən görüşünün əhəmiyyətindən, görüşdə hansı məsələlərin müzakirə olunmasından, iki ölkə arasında sülh müqaviləsinin nə zaman imzalana biləcəyindən və Zəngəzur dəhlizindən danışıb.***



***-Fərhad müəllim, İrəvanda Azərbaycan və Ermənistan vətəndaş cəmiyyəti nümayəndələrinin iştirakı ilə görüş keçirilib. Siz də bu görüşdə iştirak etmisiz. Görüşün əhəmiyyətini necə qiymətləndirirsiz?***

-Vaşinqton görüşündən sonra Azərbaycan və Ermənistan arasında münasibətlər sülh gündəliyi çərçivəsində inkişaf edir və müəyyən dərəcədə birgə fəaliyyət təmin olunub. Bu qısa müddət ərzində çoxlu qarşılıqlı addımların şahidi oluruq. Dövlətlər və hökumətlər arasında qarşılıqlı fəaliyyətlə bağlı müəyyən qərarlar var. Bütün bunları nəzərə alaraq vaxt yetişib ki, bu dialoq prosesində vətəndaş cəmiyyəti də öz iştirakını müəyyən etsin.

***-Yəqin ki, belə görüşlərin gələcəkdə də keçirilməsi nəzərdə tutulub. Görüşdə hansı məsələlər ətrafında müzakirələr aparıldı və bu addımlar iki ölkə arasında sülhün imzalanmasına nə kimi töhfə verəcək?***

-Münaqişədən sonra ilk dəfə idi ki, Azərbaycan Hava Yollarına məxsus təyyarə Ermənistanın paytaxtına eniş etdi. Görüşdə əsasən regiondakı vəziyyət, sülh gündəliyinin inkişafı ilə bağlı mövzular ətrafında müzakirələr oldu. Müzakirə edildi ki, vətəndaş cəmiyyəti, ekspertlər, media sülh quruculuğu prosesinə hansı töhfələri verə bilər. Həmçinin, cəmiyyətləri narahat edən məsələlər, sülh prosesinə süni və obyektiv maneələrin hamısı müzakirə edildi. Məsələ odur ki, biz erməni ekspertləri çoxdan tanıyırıq. Beynəlxalq təşkilatların təşkil etdiyi layihələrdə, tədbirlərdə iştirak edirik. Lakin bu görüş təşkilatçılıq baxımından sırf ikitərəfli formatda həyata keçirildi. Rəsmi qurumlar bu prosesə tam dəstək verirdilər. Ümid var ki, ikitərəfli format davamlı olacaq, belə görüşlərin təşkili normaya çevriləcək. Təsadüfi deyil ki, Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan bizimlə görüş keçirdi.

***-Qeyd olunur ki, Azərbaycanla-Ermənistan arasında sülh sazişi demək olar hazırdır, son məqamlar qalıb. Sizcə, sülh müqaviləsi nə vaxt imzalana bilər?***

-Sülh sazişi ilə bağlı müzakirələr aparıldı. Əlbəttə, bu qərarları ölkə rəhbərləri verirlər. Hazırda Azərbaycan və Ermənistan arasında de-fakto sülh bərqərar olub. Onun genişlənməsi və dərinləşməsi vacib məsələ kimi qeyd edilir. Bu istiqamətdə vətəndaş cəmiyyətləri də öz töhfəsini verməyə hazır olduqlarını bildirərkən hökumətlər tərəfindən dəstəkləndi. Sülh sazişinə gəlincə, o elə bir məsələdir ki, dövlətlər arasında münasibətlərin çərçivəsini müəyyənləşdirir. Hazırda görürük ki, dövlət strukturları sıx təmasdadırlar. Liderlərin, xarici işlər nazirləri, administrasiyalar, xüsusi xidmət orqanları, baş nazirlərin müavinlərinin görüşünü qeyd edə bilərik. Yəni, bütün istiqamətlərdə təmaslar mövcuddur. Sülh sazişinin imzalanmaması təmaslar üçün hər hansı maneə törətmir.

***-Prezident İlham Əliyev Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev ilə mətbuata bəyanatında bildirib ki, Zəngəzur dəhlizinin açılması 2028-ci ilin sonunadək baş verə bilər. Bildiyimiz kimi Zəngəzur dəhlizi layihəsi böyük potensiala malikdir. Bu dəhlizin açılmasının regiona hansı töhfələri olacaq?***

-Qazaxıstanda səslənən bu bəyanat biz İrəvanda səfərdə olarkən baş verdi. Düşünürəm ki, belə qərarların verilməsi sülh gündəliyinin möhkəmlənməsinə xidmət edəcək.

***Anar Kəlbiyev***

# Nazirlər Kabineti texnoloji biznes inkubatoru ilə bağlı qərar verdi

***Nazirlər Kabineti "Texnoloji biznes inkubatoru rezidentlərinin qeydiyyatının, həmçinin texnologiyalar parkı rezidentlərinin və texnoloji biznes inkubatoru rezidentlərinin reyestrinin aparılması Qaydası"nda dəyişiklik edib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov yeni qərar imzalayıb. Qərara əsasən, İdarəedici təşkilat inkubatorun qeydiyyat şəhadətnaməsinin verilməsi üçün dövlət rüsumunu ödəmək vəzifəsi barədə 2 iş günü müddətində ərizəçiyə şifahi və ya yazılı formada məlumat verir. Ərizəçi tərəfindən məlumat alındığı




tarixdən 5 iş günü müddətində inkubatorun qeydiyyat şəhadətnaməsinin verilməsi üçün dövlət rüsumu ödənilir və ödənişi təsdiq edən sənəd idarəedici təşkilata təqdim edilir.

Ərizəçi tərəfindən dövlət rüsumunun ödənilməsi faktını təsdiq edən sənəd təqdim edildikdən sonra inkubatorun qeydiyyat şəhadətnaməsi 2 iş günündən gec olmayaraq ərizəçiyə təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir. Dövlət rüsumunun ödənilməsi faktını təsdiq edən sənəd bu Qaydada nəzərdə tutulan müddətdə təqdim edilmədikdə, idarəedici təşkilat tərəfindən inkubatorun qeydiyyat şəhadətnaməsi ləğv edilir və bu barədə məlumat 2 iş günü müddətində ərizəçiyə göndərilir.

40_27 IYUl-QARA.qxd 10/23/2025 9:13 PM Page 8



# Tikinti oliqarxlarının daha bir oyunu

## MTK-lar vətəndaşları soymağın təzə üsulunu tapıblar - İlginc faktlar!



***Azərbaycanda tikinti şirkətlərinin özbaşınalıqları səngimək bilmir. Bu günlərdə həmin özbaşınalıqların sırasına yenisi əlavə olunub. Belə ki, Xətai rayonu, Əhmədli qəsəbəsi, Lütfizadə küçəsində yerləşən "Əzizbəy" MTK-nın inşa etdiyi binalarda yaşayan sakinlər ciddi problemlə üzləşdiklərini bildiriblər. Onlar "Musavat.com"a deyiblər ki, MTK onlara mənzil borcunun olmadığını təsdiq edən maliyyə arayışını yalnız əlavə ödəniş müqabilində verir.***

Sakinlərin sözlərinə görə, bina 2010-cu ildə tikilib, çıxarışların verilməsinə isə yalnız 2024-cü ildən başlanılıb: "Çıxarışı rahatlıqla ASAN Xidmət vasitəsilə ala bilərik. Lakin bunun üçün mənzilimizin MTK-ya borcu olmadığını təsdiqləyən maliyyə arayışı təqdim etməliyik. Bu arayışı isə MTK bizə pulla satır. Qiymət 1000-1500 manat arasında dəyişir. Arayışda sadəcə qeyd olunur ki, mənzil sahibinin MTK-ya borcu yoxdur. Bunun üçün niyə əlavə pul ödəməliyik?".

Şikayətçilər əlavə ediblər ki, arayış almaq prosesi olduqca çətinləşdirilir: "Bizdən pul almaq üçün süründürürlər. Halbuki bu, çox sadə işdir. Halal pulumuzu verib evimizi almışıq. Biz öz evimiz üçün niyə əlavə ödəniş etməliyik?".

Sakinlərin qaldırdığı başqa bir məsələ isə MTK-ların fəaliyyəti ilə bağlıdır. Onların sözlərinə görə, qanuna əsasən, əgər binadakı mənzillərin 50 faizdən çoxu satılıbsa, MTK öz fəaliyyətini dayandırmalı, onun yerinə sakinlərin və bələdiyyələrin iştirakı ilə Mənzil Mülkiyyətçilərinin Müştərək Cəmiyyəti (MMMC) yaradılmalıdır. Bu isə idarəetmənin sakinlərə verilməsi üçündür. Sitat: "Amma bu, həyata keçirilmir. Çünki MTK-lar çıxarışdan əlavə gəlir əldə edirlər və buna görə də idarəetməni sakinlərə təhvil vermirlər".

"Unikal"ın araşdırması nəticəsində məlum olub ki, mənzil borcunun olmadığını təsdiq edən maliyyə arayışını yalnız əlavə ödəniş müqabilində verən başqa MTK-lar da var. Məsələn, bir müddət öncə "Lider" MTK-dan da oxşar narazılıq mətbuatda yer almışdı. Həmin vaxt bildirilirdi ki, MTK tərəfindən Sumqayıt şəhər 6-cı mikrorayon ərazisində inşa edilən 33f saylı binanın sakinləri şirkət nümayəndələrinin onları incitdiyini, evlərini sənədləşdirmək üçün lazım olan maliyyə arayışı verməkdən boyun qaçırdıqlarını deyirlər: "Biz bir ildən çoxdur "Lider" MTK-nın binasından ev almışıq. Və dəfələrlə maliyyə arayışı almaq məqsədilə müraciət etsək də, rədd cavabı verilib. Səbəb kimi də sayğacların binanı tikən şirkət tərəfindən alınaraq quraşdırıldığı göstərilib və bildirilib ki, sayğacın pulu tərəfimizdən ödənilməlidir. Bunun müqabilində də 1000 (min) manat ödəniş tələb edirlər. Amma biz işıq, qaz və su idarələri ilə müqavilə bağlamışıq. Bir ildən çoxdur kommunal xidmətləri də ödəyirik. Şirkətin sayğaclarla bağlı bəhanəsini anlaya bilmirik. Və maliyyə arayışının bunun qarşılığı müqabilində verilməsini də düzgün hesab etmirik".

İddialara görə, bu cür qanunsuzluqla üzləşənlərin bəziləri hətta baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə üz tutublar və bundan sonra məsələ operativ surətdə araşdırılaraq, müsbət həllini tapıb.

Yeri gəlmişkən, əmlak məsələləri üzrə ekspert Ramil Qasımzadə də bildirib ki, MTK-ların sakinlərdən əlavə ödəniş tələb etməsi qanunsuzdur və həmin qanunsuzluqlarla üzləşənlərin hüquq-mühafizə orqanlarına müraciət etməsi məsləhətdir. Sitat: "Əgər vətəndaş mənzilin ödənişini tam edib, borcunu bağlayıbsa, MTK birmənalı şəkildə ona maliyyə arayışını verməlidir. Əgər əlavə pul tələb olunursa, sakinlər hüquq-mühafizə orqanlarına müraciət edə bilərlər. MTK-lar bəzən bunu kommunal borclarla əsaslandırırlar, amma müqavilə üzrə bütün ödənişlər tamamlanıbsa, arayış üçün əlavə pul tələb etmək mümkün deyil".

Xatırladaq ki, maliyyə arayışı - mənzilə dair pay haqqının ödənildiyini və borcun olmadığını göstərir.

Müşahidələr onu göstərir ki, tikinti oliqarxları inşa etdikləri binalardakı mənzillərin özəlləşdirilməsində maraqlı deyillər. Səbəbi də odur ki, mənzillər özəlləşdirilsə, idarəçilik onların əlindən çıxacaq və qazancdan olacaqlar. Elə maliyyə arayışının verilməsinə görə pul tələb olunması kimi!

Sonda onu da deyək ki, 29 mart 2019-cu il tarixində "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə fərman imzalanıb. Fərmana əsasən, yeni tikilən binalara çıxarışların verilməsinə başlanıb. Bunun üçün isə mənzil sahibləri binanı inşa edən şirkətdən arayış alaraq Daşınmaz Əmlakın Dövlət Reysteri xidmətinə müraciət etməlidirlər. İndi isə belə görünür ki, bir çox MTK-lar mənzil sahiblərinə arayış vermək üçün qanunsuz şərt qoymağa başlayıblar. Əcaib vəziyyətdir: belə çıxır, tikinti oliqarxlarına mənzillərin satışından əldə etdikləri qazanc kifayət eləmir, onlar öz müştərilərini soymağın fərqli yollarını fikirləşib tapırlar...

***Sənan Mirzə***



# Daxili İşlər Nazirliyinə yeni səlahiyyət verildi

***Nazirlər Kabineti 6 noyabr 2007-ci il tarixli qərarı ilə təsdiq edilmiş "Qiymətli metalların və qiymətli daşların istehsalı, emalı, istifadəsi, dövriyyəsi və onlardan hazırlanmış məhsulların daşınması zamanı hüquqi şəxslər, habelə qiymətli metallar və qiymətli daşlarla əməliyyatlar həyata keçirən fərdi sahibkarlar tərəfindən onların mühafizəsinin həyata keçirilməsi Qaydaları"nda dəyişiklik edib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov yeni qərar imzalayıb.

Qərara əsasən, emal edilməmiş almazın idxal və ixracı zamanı emal edilməmiş almazlar kənar müdaxilədən qoruyan və müdaxilə edildikdən sonra ilkin formaya qayıtmasını istisna edən konstruktiv quruluşa malik təhlükəsiz bağlamalarda daşınmalı, bağlamalara müvafiq eyniləşdirmə vasitələri (plomblar, möhürlər, ştamplar və s.) tətbiq olunmalıdır.

Emal edilməmiş almazın idxalı, ixracı, istifadəsi, dövriyyəsi, uçotu və saxlanılması, o cümlədən izlənməsi zamanı mühafizənin təşkilini Daxili İşlər Nazirliyinin silahlı ekipajı ödənişsiz qaydada həyata keçirir.

Qərar ölkəmizin "Kimberli Prosesinin Sertifikatlaşdırma Sxemi"nə qoşulduğu gündən qüvvəyə minir.

# 8 min manatdan çox maaşı olanlar sosial vergini fərqli formada ödəyə bilər

***Azərbaycanda 2019-cu ildən qüvvədə olan, qeyri-neft-qaz və qeyri-dövlət sektorlarında çalışanlar üçün nəzərdə tutulmuş sosial verginin ödənilməsi qaydası dəyişə bilər.***

"Unikal" xəbər verir ki, bu, 2026-cı ilin büdcə zərfinin layihəsində öz əksini tapıb.

Sənədə əsasən, gələn ildən aylıq gəlir yalnız 200 manatdan 8 000 manata qədər olduqda sığortaolunan 6 manat + 200 manatdan 8000 manata qədər olan hissənin 10 %-i qədər, sığortaedən isə 44 manat + 200 manatdan 8 000 manata qədər olan hissənin 15 %-i qədər sosial sığorta haqqı ödəyəcək (sosial vergi yükü - 25 %).

Aylıq gəlir 8 000 manatdan çox olduqda isə sığortaolunan 786 manat + 8 000 manatdan çox olan hissənin 10 %-i qədər, sığortaedən isə 1 214 manat + 8 000 manatdan çox olan hissənin 11 %-i qədər sosial sığorta haqqı ödəyəcək. (sosial vergi yükü - 21 %).

Aylıq gəlir 200 manata qədər olduqda isə hazırda qüvvədə olan qaydada sığortaolunan 3 %, sığortaedən isə 22 % sosial sığorta haqqı ödəyəcək (sosial vergi yükü - 25 %).

Xatırladaq ki, 2019-cu il yanvarın 1-dən 7 il müddətinə sözügedən kateroyaya aid şəxslərin aylıq gəliri 200 manatdan çox olduqda sığortaolunanın gəlirlərindən 6 manat + 200 manatdan çox olan hissənin 10 %-i, sığortaedənin vəsaitindən isə 44 manat + 200 manatdan çox olan hissəsinin 15 %-i qədər sosial sığorta haqqı tutulur.

40_27 IYUI-QARA.qxd 10/23/2025 9:14 PM Page 9



# Suriyadan altı azərbaycanlı ölkəyə gətirildi



***Suriyadan oktyabrın 22-də ikisi qadın, dördü uşaq olmaqla 6 Azərbaycan vətəndaşının ölkəyə repatriasiyası həyata keçirilib.***

”Unikal” xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyi məlumat yayıb.

Bildirilib ki, Azərbaycan vətəndaşlarının repatriasiyasına məsul olan müvafiq dövlət qurumlarının nümayəndələri Suriyaya ezam edilib, repatriantların ilkin tibbi və psixoloji müayinəsinin həyata keçirilməsi təmin olunub.

Repatriantların sosial reabilitasiyası və cəmiyyətə reinteqrasiyası istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

# Gələn ildən Laçına müntəzəm uçuşlara başlanıla bilər




***2026-cı ildə Laçın Beynəlxalq Hava Limanına müntəzəm reyslərin həyata keçirilməsinə başlanıla bilər.***

”Unikal” xəbər verir ki, bu, 2026-cı ilin büdcə zərfinin layihəsində öz əksini tapıb.

Sənədə əsasən, gələn il ”Azərbaycan Hava Yolları” QSC Naxçıvan Muxtar Respublikasına həyata keçirdiyi reyslər, Böyük Vətən müharibəsi əlilləri və iştirakçılarının, habelə onlara bərabər tutulan şəxslərin Müstəqil Dövlətlər Birliyi ölkələrinə nəqliyyatda gedişlə bağlı tətbiq edilən güzəştlər hesabına yaranan zərərin ödənilməsi, Füzuli və Laçın aeroportlarına təşkil edəcəyi reyslərə görə yaranacaq zərərin subsidiyalaşdırılması məqsədilə dövlət büdcəsindən 5,9 milyon manat vəsait alacaq.

# Heyvan bazarlarında fəaliyyət nə zaman bərpa olunacaq?

***Azərbaycan ərazisində heyvan bazarlarında zəruri infrastruktur təmin edildikdən sonra fəaliyyətləri bərpa olunacaq.***

”Unikal” xəbər verir ki, bu barədə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) məlumat yayıb.

Son dövrlərdə əldə edilən məlumatlar göstərir ki, Cənubi Qafqaz regionuna daxil olan bir sıra ölkələrdə xüsusi təhlükəli heyvan xəstəliklərinin yayılma riski mövcuddur”. Bu barədə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin şöbə müdiri, Respublikanın baş dövlət baytarlıq müfəttişi Qalib Əbdüləliyev bildirib. Onun sözlərinə görə, ölkəmizdə də endemik xarakter daşıyan xüsusi təhlükəli heyvan xəstəlikləri mövcuddur. Buna görə həm ölkəmizi xaricdən keçə biləcək xəstəliklərdən qorumaq, həm də ölkə daxilində mövcud xəstəliklərin yayılmasının qarşısını almaq məqsədilə müvafiq məhdudlaşdırıcı tədbirlərin həyata keçirilməsi zərurəti yaranmışdır.

Qalib Əbdüləliyev qeyd edib ki, xüsusi təhlükəli xəstəliklər, əsasən, bir heyvandan digərinə birbaşa təmas (kontakt) yolu ilə keçdiyindən, bu baxımdan ən riskli məkanlardan biri heyvan bazarları hesab olunur. Bu səbəbdən qərara alınıb ki, 25 oktyabr tarixindən etibarən respublika ərazisində bütün heyvan bazarlarının fəaliyyəti müvəqqəti olaraq məhdudlaşdırılsın.

”Məhdudiyyət tədbirləri mərhələli şəkildə tətbiq olunur. Son bir həftə ərzində əhali arasında məlumatlandırma və maarifləndirmə işləri aparılmış, bazarlarda baytarlıq-sanitariya vəziyyəti qiymətləndirilmişdir. Bu addımın əsas məqsədi heyvanlar arasında təmasın qarşısını almaq və xəstəliklərin yayılma riskini minimuma endirməkdir”.

Qalib Əbdüləliyev vurğulayıb ki, heyvanların satışı birbaşa heyvandarlıq təsərrüfatlarında həyata keçiriləcək və buna hər hansı məhdudiyyət qoyulmur.

Eyni zamanda Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyasının qərarı ilə ”Heyvan bazarlarına dair baytarlıq-sanitariya norma və qaydaları” təsdiq edilmişdir. Göstərilən sənədin tələblərinə uyğun olaraq bazarlarda yenidənqurma işləri aparıldıqdan və zəruri infrastruktur təmin edildikdən sonra onların fəaliyyəti bərpa olunacaq.

# Azərbaycan səhiyyəsində növbəti “saxta ambulans” qalmaqalı

## Özbaşınalığın son həddi: Bakıda daha bir qanunsuz təcili tibbi yardım maşını peyda oldu - Səhiyyə Nazirliyi ciddi bir məsələyə niyə qeyri-ciddi yanaşır?




***Bakıda 90-XF-603 dövlət qeydiyyat nişanlı avtomobilin sahibi nəqliyyat vasitəsinin üzərinə xüsusi səs siqnalı yerləşdirərək və ”ambulans” yazısı qeyd edərək fərdi ”tibbi xidmət”lə məşğul olduğu iddia edilir. Bu barədə “Unikal.org” məlumat yayıb.***

Xatırladaq ki, bir müddət əvvəl ayrı-ayrı şəxslərin qanuni əsas olmadan təcili tibbi yardım avtomobillərində əhaliyə tibb xidməti göstərməsi ilə bağlı ilk xəbəri də “Unikal” olaraq biz yayımlamışdıq. Qeyri-qanuni fəaliyyət göstərən ambulanslarla bağlı yeni fakt kimlərinsə bu saxtakarlığı əməlli-başlı vərdişə çevrdiyini göstərir.

Onu da deyək ki, bu mövzunu ilk dəfə gündəmə gətirərkən Səhiyyə Nazirliyi Analitik Ekspertiza Mərkəzindən (AEM) ”Unikal”ın sorğusuna cavab olaraq bildirilmişdi ki, ambulansla pasiyentlərə tibbi xidmət göstərilməsi səyyar xidmətin tərkib hissəsidir və “Özəl tibb fəaliyyəti üzrə lisenziyalaşdırılan xidmətlərin və işlərin Siyahısı”na əsasən, lisenziya tələb edilən xidmət növüdür”. Ardınca da AEM-nin özəl tibb müəssisələrinə dair məlumat bazasında şəklini göndərdiyimiz ambulansla bağlı məlumat olmadığı vurğulanmış, bu məsələdə səlahiyyətli dövlət orqanı olaraq isə Daxili İşlər Nazirliyi (DİN) göstərilmişdi: “”Yol hərəkəti haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən, ölkəmizin ?razisind? bütün mexaniki n?qliyyat vasit?l?ri v? onların qoşquları Daxili İşlər Nazirliyi tərəfindən qeydiyyata alınır və onlara nəzarət DİN-in səlahiyyətləri daxilindədir... Səhiyyə Nazirliyi tərəfindən nəqliyyat vasitələrinin fəaliyyətinə nəzarətin aparılması yalnız konkret şəxslərin tibbi xidmət göstərilməsinə dair hüquq mühafizə orqanları tərəfindən aşkar edilmiş və Səhiyyə Nazirliyinə təqdim edilmiş faktlar əsasında mümkün ola bilər.Yuxarıda qeyd olunanlara əsasən, DİN-ə müraciət edilib. Zəruri məlumatlar alındıqdan sonra qanunvericiliyə uyğun müvafiq addımlar atılacaq”.

Həmin vaxt Baş Dövlət Yol Polisi İdarəsinin rəsmisi, polis polkovnik-leytenantı Mübariz Ağayev isə ”Unikal”ın sorğusuna cavab olaraq bildirmişdi ki, AEM-nin müraciəti əsasında araşdırma aparılaraq sözügedən məsələyə hüquqi qiymət veriləcək: ”Bir daha xatırladırıq ki, nəqliyyat vasitələrinin müvafiq icazə olmadan xüsusi (çoxavazlı) səs və ya sayrışan işıq siqnalları və ya operativ nəqliyyat vasitələri üçün müəyyən edilmiş rənglənmə sxemləri, yazılar və tanınma nişanları ilə təchiz edilməsi hüquqazidd əməldir. Belə hallara qarşı DYP tərəfindən mütəmadi olaraq kəsərli mübarizə tədbirləri aparılır və bu kimi kobud qayda pozuntuları aşkarlandığı təqdirdə qanunda nəzərdə tutulmuş ən sərt inzibati tənbeh tədbirləri tətbiq edilir”.

Bütün bunların ardınca Bakıda yenə saxta ambulansın peyda olması düşündürücü məqamdır. İlk növbədə belə çıxır ki, Səhiyyə Nazirliyi sözügedən mövzuda heç nə qədər məsuliyyəti başqa bir dövlət qurumunun üzərinə atmağa çalışsa da, qanunsuz təcili tibbi yardım fəaliyyəti ilə bağlı ortaya çıxan fakta həssas yanaşmayıb. Belə olmasaydı, saxta ambulanslarla bağlı yeni fakt ortaya çıxmazdı.

Qeyd edək ki, əhali dövlət tərəfindən maliyyələşdirilən təcili və təxirəsalınmaz tibbi yardımın səviyyəsindən narazıdır. Vətəndaşlar onların çağırışlarına vaxtında reaksiya verilməməsindən və xəstəyə düzgün tibbi müdaxilə edilməməsindən gileylənirlər. Özəl klinikaların ödənişli təcili və təxirəsalınmaz tibbi yardımı isə əksəriyyətin maddi imkanları ilə üst-üstə düşmür. Əvvəl də yazdığımız kimi, görünür, kimlərsə bu anormal vəziyyətdən faydalanmaq, fərdi qaydada və qanunvericiliklə müəyyən edilməyən şəkildə vətəndaşlara öz ”təcili və təxirəsalınmaz yardımını” təklif etmək, beləcə, rahat qazanc əldə etmək qərarına gəlib.

Səhiyyə Nazirliyinin məsələyə laqeyd yanaşması isə ikiqat təəccüblüdür. Belə çıxır ki, nazirlik ölkənin səhiyyə sektoruna nəzarəti tamam itirib və bu sahədə sözün həqiqi mənasında başıpozuqluq hökm sürür. Hətta apteklərdə vətəndaşların qan təzyiqinin, yaxud qan şəkərinin ölçülməsi belə qadağan olunmuşkən ayrı-ayrı şəxslərin təcili və təxirəsalınmaz tibbi yardımı qazanc mənbəyinə çevirməsinə ad tapmaq, Səhiyyə Nazirliyinin də bu cür özbaşınalıqlardan hələ bir il öncədən məlumatlı olduğu halda aradan keçən müddətdə konkret addımlar atmamasına ad vermək mümkün deyil. Bu, haqlı olaraq sual yaradır: əhalinin sağlamlığı və qanunların aliliyi baxımından çox ciddi bir məsələyə bir il boyunca qeyri-ciddi yanaşan adı çəkilən nazirlikdə, bəlkə də, kimlərsə saxta ambulansların fəaliyyətində maraqlıdır?

Əgər doğrudan da belədirsə, yəni qanunsuz təcili tibbi yardım fəaliyyətinə Səhiyyə Nazirliyinin məsul şəxsləri tərəfindən bilərəkdən göz yumulursa və bunda hər hansı maraq varsa, ortaya ikinci sual çıxır: həmin marağın kökündə əcəba nə dayanır?!...

***Sənan Mirzə***

# Sabiq nazir müavini yenidən dirçəlir

## Elsevər Ağayev səhiyyə sektorunda mövqelərini bərpa etməyə çalışır - Bir ildə 5 tenderin kodları

***Tibb sektorunda fəaliyyət göstərən "SEM-AZ" MMC cari ildə qalib gəldiyi satınalma müsabiqələrinin sayını 5-ə çatdırıb. Şirkət son olaraq Səhiyyənin Təminatı Mərkəzinin laboratoriya tədqiqatları və müayinələr üçün lazım olan materialların satın alınması ilə bağlı keçirdiyi tenderin qalibi seçilib. Tərəflər arasında bağlanacaq satınalma müqaviləsinin maliyyə dəyəri 801 912,66 manat təşkil edir.***

"SEM-AZ" MMC bundan əvvəl Analitik Ekspertiza Mərkəzinin keçirdiyi 2, Səhiyyənin Təminatı Mərkəzi və Regional Su Meliorasiya Xidmətinin isə 1 satınalma müsabiqəsinin qalibi seçilib. Bu müsabiqələr üzrə satınalma müqavilələrinin ümumi maliyyə dəyəri 1 611 254,92 manatdır.

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin reyestr məlumatlarına əsasən, "SEM-AZ" MMC 15 may 2009-cu ildə qeydiyyata alınıb. Nizamnamə kapitalı 100 manatdır. Şirkətin hüquqi ünvanı Bakı şəhəri Nəsimi rayonu, akademik Mustafa Topçubaşov küçəsi, ev 21, mənzil 37-də yerləşir. MMC-nin qanuni təmsilçisi Məmmədov Anar Firkət oğludur.

Anar Məmmədov eyni zamanda "SEM-AZ Laboratoriya Cihazları" MMC-nin qanuni təmsilçisidir. Bu şirkətin hüquqi ünvanı Bakı şəhəri Səbail rayonu Badamdar qəsəbəsi, ev 2, döngə 11-də yerləşir.

İstər "SEM-AZ" MMC, istərsə də "SEM-AZ Laboratoriya Cihazları" MMC haqqında açıq mənbələrdə hər hansı məlumata rast gəlinmir.

Mediada dərc edilən materiallarda isə "SEM-AZ" MMC haqqında ilginc faktlar var. Bildirilir ki, "SEM-AZ" MMC əslində səhiyyə nazirinin keçmiş müavini Elsevər Ağayevə məxsusdur. Qarşı tərəfin bu iddianı təkzib etməsi barədə heç bir məlumat yoxdur.

Elsevər Ağayev 22 ilə yaxın səhiyyə nazirinin müavini vəzifəsində çalışıb. O, nazir müavini vəzifəsinə 1999-cu ildə təyin edilib. 2022-ci ildə isə işdən çıxarılıb.

O, postunu itirdikdən sonra səhiyyə sektorundakı təsir imkanlarını xeyli itirmişdi. Lakin Ağayevə məxsus şirkətin bu il ərzində 5 tender qazanması sabiq nazir müavininin yenidən dirçəlişi kimi qiymətləndirilə bilər.

Yeri gəlmişkən, vəzifəsindən azad edilməsinin ardınca Qaynarinfo.az-a danışan keçmiş nazir müavini kefinin yaxşı olduğunu bildirmişdi: "Kefim əladır. Bir az işlərim var. Vəzifəmdən azad olunmağımla bağlı hansısa şərh vermək istəmirəm. Sonra danışarıq".

Həmin vaxt Ağayevin bu açıqlamasında iki məqama diqqət çəkilmişdi. Onun kefinin yaxşı olması fəaliyyətinin təftiş ediləcəyi təqdirdə ortaya ciddi pozuntuların çıxa, nəticədə də hüquqi məsuliyyətə cəlb oluna biləcəyi barədə çoxdankı iddialarla əsaslandırılmışdı. Qeyd olunurdu ki, oliqarxlaşmış bir çox məmurların həbsə atıldığı bir vaxtda sabiq nazir müavini sadəcə vəzifədən azad olunmaqla canını qurtardığı üçün məmnundur. Baxmayaraq ki, 23 il boyunca Səhiyyə Nazirliyində yetərincə yüksək post tutmuş və gözünü növbəti mərhələdə nazir vəzifəsinə dikmiş Ağayevin müəyyən qədər xəyal qırıqlığı yaşadığı da istisna olunmurdu.

"Bir az işlərim var" deməklə isə Elsevər müəllimin bundan sonra bütün diqqətini şəxsi biznesinə yönəldəcəyinə işarə vurduğu bildirilirdi. İndi isə onun şirkətinin "tender kralı"na çevrilməsi sabiq nazir müavininin anons etdiyi işləri uğurla yerinə yetirdiyini və səhiyyə sektorunda əvvəlki mövqelərini bərpa etməyə başladığını deməyə əsas verir.

Hətta 60 yaşlı Ağayevin Səhiyyə Nazirliyində yenidən yüksək post tutmağa çalışdığı barədə də iddialar var. Bu iddiaların gerçəkləşib-gerçəkləşməyəcəyini isə zaman göstərəcək.

Xatırladaq ki, bu ilin aprelində sabiq nazir müavininin Naxçıvan Muxtar Respublikasının Səhiyyə naziri olmaq istədiyi barədə xəbərlər yayılmışdı. Həmin vaxt yerli KİV-in yaydığı məlumatda deyilirdi ki, Naxçıvanda səhiyyə kluarlarında gəzən məlumatlara görə Elsevər Ağayev bir neçə ildir həmin fikrə düşüb.

O zaman məlumatın nə dərəcədə doğru olub-olmadığını eks-müavinlə dəqiqləşdirmək mümkün olmamışdı. Lakin aradan keçən müddətdə Naxçıvan Ali Məclisinin sədr müavini Anar İbrahimovun imzaladığı qərarla səhiyyə naziri postuna bu vəzifəni müvəqqəti icra edən Samiq Sadıxovun təyinatı Elsevər Ağayevin istəyinin gerçəkləşməmiş olduğunu təsdiqlədi.

İndi isə onun Azərbaycan Respublikası Səhiyyə Nazirliyində yenidən yüksək post tutmağa çalışdığı barədə iddialar var. Bu dəfə sabiq nazir müavininin istəyinin gerçəkləşib-gerçəkləşməyəcəyini isə zaman göstərəcək.



***Sənan Mirzə***

# Ünvanlı sosial yardım alanlara şad xəbər: Bu qədər artım olacaq



***"2026-cı ildən Azərbaycanda yaşayış minimumu və ehtiyac meyarının 300 manat olması nəzərdə tutulur. Yeni ehtiyac meyarının müəyyənləşdirilməsi ünvanlı sosial yardımın aylıq məbləğinin artırılması və müraciətin genişləndirilməsi baxımından vacibdir".***

"Unikal" xəbər verir ki, bunu deputat Vüqar Bayramov deyib. O bildirib ki, bu kontekstdən ehtiyac meyarının artırılması ünvanlı sosial yardım proqramı çərçivəsində vətəndaşlarımızın aldığı yardım məbləğinin gələn ildən artmasına səbəb olacaq.

"Eyni zamanda, ehtiyac meyarı artırıldığı üçün daha çox ailə ünvanlı sosial yardıma müraciət edə biləcək. Aydınlıq üçün: ailənin 5 üzvü var və həmin ailənin rəsmi aylıq gəliri 900 manatdır. Bu il həmin ailə üçün 1425 manat (5 nəfər X 285 manat) ehtiyac meyari, yəni xərc hesablanır. Bu zaman ailənin xərci ilə gəliri arasındakı fərq 525 manat (1425 manat- 900 manat) olur. Həmin ailənin ünvanlı sosial yardıma müraciət hüququ olduğu halda o proqram çərçivəsində ayda dövlətdən 525 manat yardım ala bilir. Amma bu rəqəm gələn ildən artacaq. Belə ki, həmin ailə üçün ehtiyac meyar gələn ildən 1500 manata yüksəlir (5 nəfər X 300 manat) və nəticədə həmin ailənin gəliri dəyişmədiyi halda aldığı aylıq yardım 525 manat deyil, 600 manat (1500 manat- 900 manat) olur.

Hazırda 80 min 300 aztəminatlı ailənin 353 min 300 üzvü ünvanlı dövlət sosial yardımı alır. Bu isə o deməkdir ki, artımlardan faydalanan ailələrin sayı kifayət qədər çox olacaq".

# Biləsuvarda məktəb direktoru nöqsanlara görə işdən çıxarıldı



***Biləsuvarda məktəb direktoru işdən çıxarılıb. Bu barədə "Unikal"a Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyindən məlumat verilib.***

Bildirilib ki, daxil olmuş vətəndaş müraciəti əsasında Biləsuvar rayonu Amankənd kənd ümumi orta ümumtəhsil məktəbində araşdırma aparılıb. Araşdırma nəticəsində məktəbin direktoru Anar İmanovun əmək funksiyasını və əmək müqaviləsi üzrə öhdəliklərini düzgün yerinə yetirmədiyi, təhsilverənlərin etik davranış qaydalarını, eyni zamanda mövcud təlimatların tələblərini pozduğu, bununla yanaşı, təhsil müəssisəsində təlim-tərbiyə prosesinin, əmək və icra intizamının pozulduğu aşkar edilib.

Aşkar edilmiş nöqsanlara görə, Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin direktoru Eşqi Bağırovun əmrinə əsasən, adıçəkilən məktəbin direktoru Anar İmanov ilə bağlanmış əmək müqaviləsi Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 70-ci maddəsinin "ç" bəndinə əsasən ləğv edilib.

# Azərbaycanda tələbə dabaq xəstəliyinə yoluxub? - RƏSMİ



***Hazırda ölkədə dabaq xəstəliyi ilə bağlı insanlar arasında yoluxma faktı aşkarlanmayıb.***

"Unikal" xəbər verir ki, bu barədə Səhiyyə Nazirliyi açıqlama yayıb. Bildirilib ki, sosial şəbəkələrdə "Anadolu Universitetinin Bakı filialında təhsil alan Elnarə Həziyeva adlı şəxsin guya dabaq xəstəliyinə yoluxması" ilə bağlı yayılan məlumat həqiqətə uyğun deyil:

"Qeyd edirik ki, Azərbaycanda son 30 il ərzində insanlar arasında dabaq xəstəliyi qeydə alınmayıb. Hazırda ölkə ərazisində bu xəstəliklə bağlı insanlar arasında yoluxma faktı aşkarlanmayıb". Nazirlik vətəndaşlara müraciət edərək bildirib ki, yalnız rəsmi mənbələrin təsdiqlədiyi məlumatlara etibar edilsin.



# Dünya səyyahları Şuşada

***ETIC (Extreme Traveler International Congress) klubunun rəhbəri Kolja Sporinin başçılığı ilə oktyabrın 23-də 8 ölkədən olan səyyahlar Şuşa şəhərinin mərkəzi meydanında Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvan, Bülbül və Üzeyir Hacıbəylinin güllələnmiş heykəllərini ziyarət ediblər.***

"Unikal" xəbər verir ki, işğal zamanı ermənilərin həmin heykəlləri Ermənistana apararaq əritmək istədikləri qonaqların diqqətinə çatdırılıb.

Bildirilib ki, Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə həmin heykəllər Ermənistandan alınaraq Azərbaycana gətirilib və Bakıda İncəsənət Muzeyinin həyətində saxlanılıb. Şuşa işğaldan azad olunduqdan sonra həmin heykəllər öz əvvəlki yerlərinə qaytarılıb.

Daha sonra səyyahlar "Xan qızı" bulağında olublar. Onlara bulaq haqqında məlumat verilib. Bildirilib ki, Şuşa işğaldan azad olunandan qısa müddət sonra istifadəyə verilən "Xan qızı" bulağı şəhərin məşhur məkanlarından biridir. Xan qızı Xurşidbanu Natəvan təkcə şairə kimi deyil, xeyirxahlığı ilə də tanınırdı. Natəvanın vaxtilə şəhərə çəkdirdiyi su xətti "Xan qızı" bulağı adı ilə məşhur idi. Ermənistanın işğalı altında olduğu müddətdə suyu quruyan bulaq yenə də sakinlər və şəhərin qonaqlarının istifadəsindədir.

Sonra qonaqlar Şuşa qala divarlarını ziyarət ediblər. Burada onlara Şuşa şəhərinin tarixi, qala divarlarının tikilməsi barədə məlumat verilib. Qeyd olunub ki, Qarabağ xanı Pənahəli xan tərəfindən inşa edilən qala uzun müddət şəhəri xarici müdaxilələrdən qoruyub, alınmazlıq simvolu olub. İşğal dövründə qala divarları erməni vandalizminə məruz qalıb. Şuşa işğaldan azad edildikdən sonra qalada təmir-bərpa işləri aparılıb.

Yuxarı Gövhər Ağa məscidinə gələn qonaqlara ermənilərin mədəni, tarixi, dini abidələrə qarşı həyata keçirdikləri vandalizm barədə məlumat verilib. Vurğulanıb ki, işğal edilən bütün ərazilərdə olduğu kimi, Şuşada da abidələr, o cümlədən məscidlər dağıdılıb, təhqirə məruz qalıb. Erməni vandalizminə məruz qalan tarixi-dini abidələrdən biri də Yuxarı Gövhər Ağa məscididir. Şuşa şəhəri işğaldan azad edildikdən sonra Azərbaycan dövlətinin diqqət və qayğısı ilə məsciddə yenidənqurma və bərpa işləri həyata keçirilib.

# Azərbaycanda qadın sahibkarların sayı açıqlandı



***2025-ci ilin oktyabr 1-i vəziyyətinə Azərbaycanda hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün qeydiyyatdan keçmiş fərdi sahibkarların sayı 1 milyon 435 min 420 nəfər olub.***

Dövlət Statistika Komitəsindən "Unikal"a verilən məlumata görə, sahibkarlıqla məşğul olmaq niyyətində olan fərdi sahibkarların əsas hissəsi Bakıda (26,1%), Lənkəran-Astara (10,3%), Qazax-Tovuz (7,9%) və Mərkəzi Aran (7,2%) iqtisadi rayonlarında qeydiyyata alınıb.

Qeyd edək ki, fərdi sahibkarların 76.4%-ni( 1096659 nəfəri) kişilər, 23.6%-ni (338 761 nəfəri) isə qadınlar təşkil edib.

Xatırladaq ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə kişi fərdi sahibkarların sayı 3.9% və ya 40.7 min nəfər, qadın fərdi sahibkarların sayı isə 6.7% və ya 21.2 min nəfər artıb.

# Daha bir icra başçısından yarım milyonluq müəmmalı tender

## Məmməd Məmmədov Tovuzda un istehsalçısından necə inşaat şirkəti düzəldib?

***Tovuz Rayon İcra Hakimiyyəti rayonda abadlıq işlərinin həyata keçirilməsi ilə bağlı elan etdiyi tenderə yekun vurub. Qaynarinfo xəbər verir ki, tenderin qalibi "Taleh-RT" MMC seçilib. Abadlıq işlərinə görə şirkətə 579 452,33 manat ödəniləcək.***

Lakin məsələ burasındadır ki, həmin tenderin şəffaflığına müəyyən şübhələr var. Əvvəlcə onu bildirək ki, "Taleh-RT" MMC un istehsalçısı olub. Şirkət 1998-ci ildən fəaliyyət göstərir. MMC-nin əvvəlki adı "Taleh-RT" Un Sənayesi Birgə Müəssisəsi olub. Təsəvvür edin ki, şirkət cari ayın 1-dək bu adla fəaliyyət göstərib. 2025-ci ilin oktyabrın 1-də isə şirkətin adı dəyişdirilərək "Taleh-RT" MMC adlandırılıb. Bundan sonra MMC abadlıq işləri ilə bağlı tenderin qalibi elan edilib.



Lakin araşdırmalarımız zamanı məlum olub ki, Tovuz Rayon İcra Hakimiyyəti bundan əvvəl də sözügedən şirkətlə satınalma müqaviləsi imzalayıb. Həmin müqavilədə də abadlıq işlərinin həyata keçirilməsi nəzərdə tutulub. Bu barədə də mediada da yazılıb və şirkətin adına xüsusi diqqət çəkilib. Görünür, bundan sonra MMC-nin adının dəyişdirilməsi zərurəti yaranıb.

Lakin dövlət satınalmalarının elektron portalında hələ də şirkətin adı "Taleh-RT" Un Sənayesi Birgə Müəssisəsi kimi qeyd edilir. Ehtimal olunur ki, şirkət tenderə qatılanda hələ adı dəyişdirilməyib. Addəyişmə müsabiqə prosesində baş tutub.

"Taleh-RT" MMC-nin nizamnamə kapitalı 100 manatdır. Şirkətin hüquqi ünvanı cari ilin yanvar ayınadək Tovuz rayonu, Qovlar şəhəri, vağzal, ev 26 olub. Yanvar ayından bu yana isə MMC-nin hüquqi ünvanı Bakı şəhəri Binəqədi rayonu, Azadlıq prospekti, ev 22/182, mənzil 28-də yerləşir.

"Taleh-RT" MMC-nin qanuni təmsilçisi Əliyev Rasim Əhməd oğludur. Açıq mənbələrdə onun haqqında heç bir məlumat yoxdur. Şirkət haqqında da hər hansı məlumat gözə dəymir.

Adətən bu tip şirkətlərdən tender oyunlarında istifadə edilir. Nəzərə alsaq ki, "Taleh-RT" un istehsalçısından tikinti şirkətinə "çevrilib", o zaman bu MMC-ni də tender mafiyasının siyahısında olan şirkətlərdən hesab etmək olar.

Bəzi iddialara görə isə "Taleh-RT" MMC Tovuz Rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədova yaxın şirkətdir.

Məmməd Məmmədov 2018-ci ildən Tovuzun icra başçısıdır. "Taleh-RT" MMC-nin Tovuz Rayon İcra Hakimiyyətinin tenderlərinin qalibi seçilməsi məhz onun dövründən başlayır.

64 yaşlı Məmmədovun ali təhsilli iqtisadçı olduğu bildirilir, lakin onun karyerası ilə bağlı "Unikal"ın internet üzərindən apardığı araşdırmalar nəticəsiz qalıb. Açıq mənbələrdə, hətta Tovuz Rayon İcra Hakimiyyətinin rəsmi saytında belə, bu barədə hər hansı bilgi yoxdur. Sadəcə bunu öyrənmək mümkün olub ki, o, vaxtilə Kənd Təsərrüfatı Nazirliyində çalışıb. Uzun müddət bitkiçilik sahəsində, xüsusilə bitkiçiliklə bağlı dərmanların hazırlanması üzrə işlədiyindən "Zəhər Mamed" ləqəbi ilə tanındığı da deyilir. İcra başçısı olmazdan əvvəl "Aqrokimya" MMC yaradıb. M.Məmmədov icra başçısı təyinatı aldıqdan sonra həmin şirkət xeyli böyüyüb, milyonlarla manatlıq tender qazanıb.

İcra başçısı olduğu 7 ildə M.Məmmədovun ünvanına çoxsaylı tənqidlər və ittihamlar səsləndirilib. Həmin ittihamlar arasında onun indiyədək milyonlarla manat dövlət vəsaitini obyektivliyi şübhə altında qalan satınalma müsabiqələri vasitəsilə özünə yaxın şirkətlərə yönəltdiyi barədə iddialar xüsusi yer tutur. Bu sırada şəxsən onun özünün təsisçisi olduğu deyilən "Aqrokimya" MMC-nin udduğu tenderlər diqqəti cəlb edir. Bu da azmış kimi, "Aktualinfo" ötən il yazmışdı ki, "sosial şəbəkələrdə Tovuz rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədovun Tovuzun kəndlərində sadə vətəndaşlara aid pay torpaqlarına verilən suda problem yaradır ki, kənd sakinləri bezib əllərində olan torpaqları bu adama satsınlar. Bu üsulla yüzlərlə hektar torpaq, kənd sakinlərindən alınıb öz adamlarının adına keçirilib..."

Bir ay öncə isə "Xalqonline" bildirib ki, Tovuzun icra hakimiyyəti başçısı rayonun Aşağı Quşçu yolunun üstündəki böyük bağ sahələrini 2 milyon manata satın alıb. Bağ sahələrinin 130 hektar və Rusiyada yaşayan məşhur bir tovuzlunun qohumuna məxsus olduğu da deyilirdi. Məlumata görə torpaq sahəsi icra başçısının ailə üzvlərindən birinin adına sənədləşdirilib.

Lakin M.Məmmədov indiyədək özü haqqında bütün bu iddiaları cavabsız qoyub. O, yazılanları nə təsdiq, nə də təkzib edib.

***Toğrul Əliyev***

40_27 IYUI-QARA.qxd 10/23/2025 9:15 PM Page 12



## 5.3.4: ictimai və dövlət maraqlarının müdafiəsi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Dövlət-vətəndaş əlaqələrinin yeni mərhələsi

## Osman Gündüz: ”Son illərdə sosial şəbəkələr və elektron platformalar vasitəsilə vətəndaşların müraciət və təkliflərinin dövlət strukturları tərəfindən nəzərə alınması tendensiyası artmaqdadır”



***Azərbaycan hökumətinin həyata keçirdiyi sosial siyasət ictimai maraqların müdafiəsinin əsas sütunlarından biridir. Əhalinin sosial müdafiəsi, aztəminatlı təbəqələrin rifahının yaxşılaşdırılması, təhsil və səhiyyə xidmətlərinə çıxış imkanlarının genişləndirilməsi dövlətin başlıca prioritetləri sırasındadır. Azərbaycan dövləti milli maraqları bütün platformalarda qorumaqda qətiyyətli mövqe nümayiş etdirir. İnformasiya müharibəsində dövlətin suverenliyini və milli mənafelərini qorumaq üçün mediada, sosial şəbəkələrdə və beynəlxalq platformalarda effektiv addımlar atılır.***

Dövlət və ictimai maraqların müdafiəsi sahəsində hüquqi mexanizmlərin gücləndirilməsi də diqqət mərkəzindədir. Son illərdə həyata keçirilən məhkəmə-hüquq islahatları, elektron hökumət platformalarının tətbiqi, korrupsiyaya qarşı mübarizə tədbirləri, eləcə də Ombudsman institutunun fəaliyyətinin genişləndirilməsi bu sahədə atılan mühüm addımlardandır.

Qanunun aliliyi və hüquq qarşısında bərabərlik prinsipləri ictimai maraqların müdafiəsində əsas rol oynayır. Azərbaycan dövləti vətəndaş cəmiyyəti institutlarının inkişafını dəstəkləyir və ictimai nəzarət mexanizmlərinin təkmilləşdirilməsinə önəm verir. QHT-lərə Dövlət Dəstəyi Agentliyi və digər dövlət qurumları ictimai təşkilatlarla əməkdaşlıq edir, vətəndaş təşəbbüslərinə dəstək göstərir. Eyni zamanda, sosial şəbəkələr və elektron platformalar vasitəsilə vətəndaşların müraciət və təklifləri dövlət strukturları tərəfindən nəzərə alınır.

Dövlətin həyata keçirdiyi siyasət milli maraqların təmin olunmasına, ictimai sabitliyin qorunmasına və davamlı inkişafın təminatına xidmət edir. Elə budəfəki mövzumuz da sosial şəbəkələr və elektron platformalar vasitəsilə vətəndaşların müraciət və təkliflərinin dövlət strukturları tərəfindən nəzərə alınıb-alınmaması və bu istiqamətdə görülməli olan işlərlə bağlıdır.

5-10 il əvvəllə müqayisədə, bu gün dövlət qurumlarına hər hansı bir məsələ ilə bağlı müraciət etmək daha asan və əlçatandır. Dövlət qurumlarının əksəriyyətinin sosial platformalarda aktivliyi vətəndaş problemlərinin həllini daha da tezləşdirir. Əvvəllər bir vətəndaş dövlət qurumuna məktub yazaraq aylarla cavab gözləyirdisə, bu gün həmin problemi sosial şəbəkədə ictimailəşdirməklə daha sürətli şəkildə həllinə nail ola bilir.

Azərbaycan İnternet Forumunun rəhbəri Osman Gündüz “Unikal” qəzetinə açıqlamasında bildirib ki, son illərdə sosial şəbəkələr və elektron platformalar vasitəsilə vətəndaşların müraciət və təkliflərinin dövlət strukturları tərəfindən nəzərə alınması tendensiyası artmaqdadır. Bunu rəqəmsal idarəetmə, açıq hökumət və ictimai iştirakçılıq prinsiplərinin tərkib hissəsi kimi qiymətləndirmək olar.

Onun sözlərinə görə, Azərbaycanda dövlət qurumları, sosial media və elektron platformalardan istifadə edərək vətəndaşlarla ünsiyyəti genişləndirməyə çalışırlar. Müsahibimiz qeyd edir ki, “Elektron hökumət” portalı və “myGov” platforması vasitəsilə vətəndaşlar dövlət xidmətlərindən istifadə edir, müraciətlərini və təkliflərini bildirə bilirlər.

Bir sıra dövlət qurumları - məsələn, Daxili İşlər Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və ona tabeli qurumlar, Dövlət Gömrük Komitəsi, Təhsil Nazirliyi və digər qurumlar Facebook, Instagram kimi platformalardakı rəsmi səhifələri vasitəsilə vətəndaşların suallarını cavablandırır və bəzi hallarda problemləri operativ şəkildə həll edirlər. Osman Gündüz hesab edir ki, gələcəkdə təkcə mərkəzi icra qurumları deyil, yerli icra qurumları da sosial şəbəkələrdə aktivliyi artırmaqla vətəndaş məmnunluğunu təmin edə bilərlər.

Aparılan müşahidələr göstərir ki, hazırda bir sıra dövlət qurumları sosial platformalardakı səhifələri vasitəsilə vətəndaş müraciətlərinə birbaşa cavab verirlər. Buna misal olaraq İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və TƏBİB, ASAN Xidmət, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti, “Azəriqaz”, “Azərişıq”, “Azərsu” kimi kommunal xidmət qurumları, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və MİDA-nı göstərmək olar.

Tədricən mərkəzi icra hakimiyyəti orqanları da sosial şəbəkələrdə aktivləşir və vətəndaşların suallarını cavablandırmaq, şikayətlərini və təkliflərini qəbul etmək məqsədilə fəaliyyət göstərirlər. Son illərdə bu qurumlar “açıq hökumət”, şəffaflıq və vətəndaş yönümlülük prinsipləri çərçivəsində sosial mediada daha əlçatan olmağa çalışırlar.

Lakin hələ də bəzi yerli icra hakimiyyəti orqanları var ki, onların sosial şəbəkələrdəki fəaliyyəti yalnız gördükləri işləri ictimailəşdirməklə məhdudlaşır. Halbuki, sosial şəbəkələrdə fəallıq bir dövlət qurumu üçün təkcə müasir dövrün tələbi deyil, eyni zamanda dövlət və vətəndaş arasında daha şəffaf, operativ və etibarlı əlaqə qurma vasitəsidir.

Ənənəvi media vasitələrindən fərqli olaraq, sosial şəbəkələr interaktivdir. Vətəndaşlar suallar verə, şikayətlərini bildirə və ya rəy yaza bilirlər. Bu da dövlət qurumlarının cəmiyyətin ehtiyaclarını və problemlərini daha yaxşı anlamasına şərait yaradır. Sosial şəbəkələr vasitəsilə aparılan düzgün kommunikasiya strategiyası dövlət qurumlarını daha əlçatan və insanlara yaxın edir. Vətəndaşlarla birbaşa və interaktiv ünsiyyət mexanizmlərinin sadələşdirilməsinə səbəb olur ki, bu da dövlət qurumlarının sosial şəbəkələrdə aktivliyinin əhəmiyyətini artırır.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



## “Qida yolu ilə dabaq virusunun insana keçməsi mümkün deyil” - Nazirlik rəsmisi

***“Dabaq xəstəliyi ictimai sağlamlıq üçün təhlükə yaratmır. Bu xəstəlik çox nadir hallarda insanlara yoluxa bilər. Tarix boyu insanların dabağa yoluxması halları çox az qeydə alınıb. Belə yoluxmalar adətən birbaşa xəstə heyvanla intensiv təmas zamanı baş verir - yəni insan virusla çirklənmiş sekresiyalarla uzunmüddətli təmasda olduqda. Bununla belə, bu hallar istisnadır və insanın dabağa yoluxması ilə bağlı epidemioloji risk çox aşağıdır”.***

Bunu ”Unikal”a açıqlamasında Aqrar Xidmətlər Agentliyinin Heyvan Sağlamlığı və Baytarlıq Xidmətləri Mərkəzinin rəis müavini Yusif İbrahimov deyib.

O qeyd edib ki, insanların çiy ətlə təması nəticəsində dabaq xəstəliyinə yoluxması elmi cəhətdən sübut olunmayıb: “Qida yolu ilə bu virusun insan orqanizminə keçməsi demək olar ki, mümkün deyil. Çünki ət və ət məhsulları termiki emaldan - yəni bişirmə, qızartma və s. proseslərdən keçdikdə virus tamamilə məhv olur. Buna görə də vətəndaşlara ət məhsullarını qaydalara uyğun bişirməyi, həmçinin baytarlıq nəzarətindən keçməmiş heyvan məhsullarından istifadə etməməyi tövsiyə edirik. Fermerlərimizə isə tövsiyəmiz odur ki, kənd təsərrüfatı heyvanları ilə təmas zamanı sanitariya-gigiyena qaydalarına ciddi əməl etsinlər. Əgər xəstə heyvana təmas olubsa, əllərini və geyimlərini yaxşıca təmizləsinlər”.

Yusif İbrahimov əlavə edib ki, dabaq xəstəliyi əsasən heyvanlar üçün təhlükəli olan bir xəstəlikdir və insanlar üçün ciddi risk yaratmır: “Bir daha mütəxəssis kimi əminliklə bildirirəm ki, çiy ət vasitəsilə virusun insanlara keçməsi praktik olaraq qeyri-mümkündür”.

## DİN-dən radarlarla bağlı sürücülərə müraciət

***Daxili İşlər Nazirliyi sürücüləri diqqətli olmağa, yol hərəkəti qaydalarına ciddi riayət etməyə çağırır.***




Bu barədə ”Unikal”a DİN-dən məlumat verilib. Bildirilib ki, yol hərəkəti təhlükəsizliyinin təmin olunması, sürücü mədəniyyətinin artırılması və qəzalara səbəb olan amillərin aradan qaldırılması Nazirliyin əsas prioritet istiqamətlərindəndir: ”Baş verən qəzalarda sürət həddinin aşılması, radar qurğularına yaxınlaşdıqda sürəti azaldıb sonra yenidən artırmaq kimi məsuliyyətsiz davranışlar insan həyatına ciddi təhlükə yaradır. Unutmaq olmaz ki, radar sürücünün yolda sürət həddini müəyyən edən, həyatı qoruyan və təhlükədən çəkindirici vasitə olan təhlükəsizlik kəmeridir”.

40_27 IYUl-QARA.qxd 10/23/2025 9:15 PM Page 13






## Ət satışı mağazasında monitorinq keçirildi

***"Heyvan kəsimi fəaliyyətinin tənzimlənməsi haqqında" Prezidentin 2018-ci il 11 iyun tarixli Sərəncamının icrası ilə bağlı olaraq baytarlıq-sanitariya və sanitariya-gigiyena normalarına cavab verməyən yerlərdə, küçələrdə, yol kənarlarında heyvan kəsimi hallarının qarşısının alınması istiqamətində Qida Təhlükəsizliyi Agentliyi aidiyyəti dövlət orqanları ilə birlikdə ardıcıl monitorinqlər, yoxlama-nəzarət tədbirlərini davam etdirir.***

"Unikal" xəbər verir ki, tədbirlər çərçivəsində bu ilin əvvəlindən 22 oktyabr tarixinədək olan dövr ərzində respublika üzrə 4652 heyvan kəsimi və ət satışı mağazasında monitorinq keçirilib. Monitorinq zamanı 698 heyvan kəsimi və ət satışı mağazası ilə bağlı inzibati tədbir görülüb, 65-də isə qanunsuz heyvan kəsimi ilə əlaqədar quraşdırılmış qurğular (11-i təkrar quraşdırılmış qurğulardır) sökülüb.

Bundan başqa, 1244 halda ətlərin soyuducuda (453-də soyuducu yoxdur) saxlanılmadığı, 1277 halda isə ətlərin baytarlıq sənədi olmadan satışının həyata keçirildiyi müəyyən edilib ki, bununla bağlı icrası məcburi göstərişlər verilib.

## Dövlət sərhədini pozmağa cəhd göstərən əcnəbilər tutuldu

***Dövlət sərhədini pozmağa cəhd göstərən xarici ölkə vətəndaşları saxlanılıb.***

Dövlət Sərhəd Xidmətinin Mətbuat Mərkəzindən "Unikal"a bildirilib ki, dövlət sərhədinin etibarlı mühafizəsinin təmin edilməsi və qanunsuz miqrasiyaya qarşı mübarizə tədbirləri uğurla davam etdirilir. Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Şəki" sərhəd dəstəsinin xidməti ərazisində Azərbaycan Respublikasından Rusiya Federasiyası istiqamətinə dövlət sərhədini pozmağa cəhd göstərən 2 (iki) nəfər Mərakeş Krallığı vətəndaşı - Mohammed Fassih və Ousama Ben Moulay, "Şəmkir" sərhəd dəstəsinin xidməti ərazisində Gürcüstan istiqamətinə 3 (üç) nəfər Pakistan İslam Respublikası vətəndaşı - Ali Syed Farman, Amir Muhammad Shantazgul və Shah Syed Norman həyata keçirilmiş əməliyyat-qoşun tədbirləri nəticəsində saxlanılmışdır.

Faktlar üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.

## Neft Fondunun aktivləri 70 milyard dolları ötüb

***Bu ilin sentyabr ayının sonuna Azərbaycan Dövlət Neft Fondunun (ARDNF) aktivləri 2025-ci ilin əvvəlinə (60,031 milyard ABŞ dolları) nisbətən 16,9% artaraq 70,2 milyard ABŞ dolları təşkil edib.***

"Unikal" xəbər verir ki, bu barədə Dövlət Neft Fondu məlumat yayıb. Cari ilin yanvar-sentyabr aylarında Fondun gəlirləri 13,073 milyard manat, xərcləri isə 10,918 milyard manat təşkil edib.

Bu dövr ərzində Fondun neft-qaz sazişləri üzrə gəlirləri 7,838 milyard manat, investisiya gəliri 5,236 milyard manat olub.

Hesabat dövrü ərzində ARDNF-nin 2025-ci il büdcəsinin icrası çərçivəsində 10,861 milyard manat vəsait dövlət büdcəsinə transfert edilib.

# Kamran Əliyev Braziliyadakı tədbirdə iştirak etdi

***Azərbaycan Respublikasının Baş prokuroru cənab Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Braziliyaya səfərə gedib.***




"Unikal" xəbər verir ki, 22 oktyabr 2025-ci ildə Belem şəhərində COP30 çərçivəsində "Prokurorluq orqanlarının iqlim idarəçiliyində rolu" adlı beynəlxalq plenar iclas öz işinə başlayıb. Tədbirin açılış mərasimində çıxış edən Braziliya Federativ Respublikasının Baş prokuroru Paulo Qonet iqlim dəyişikliyi ilə mübarizədə hüquq-mühafizə, xüsusilə prokurorluq orqanlarının artan rolunu vurğulayıb, bu sahədə beynəlxalq əməkdaşlığın əhəmiyyətini qeyd edib.

Paulo Qonet, həmçinin, Azərbaycan Respublikasına COP29-a uğurla ev sahibliyi etdiyinə görə və bu beynəlxalq konfrans çərçivəsində Mavi zonada Azərbaycan Prokurorluğu tərəfindən təşkil olunan "İqlim dəyişikliyi ilə mübarizədə hüquq-mühafizə orqanlarının səfərbər olunması" adlı yüksək səviyyəli beynəlxalq tədbirə görə xüsusi təşəkkürünü ifadə edib.

Plenar iclasda çıxış edən Baş prokuror Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin siyasi iradəsi və rəhbərliyi ilə ölkəmizdə iqlim dəyişikliyi ilə mübarizə istiqamətində həyata keçirilən tədbirlər, ətraf mühitin mühafizəsi sahəsində görülən çoxşaxəli işlər, o cümlədən qanunvericiliyin təkmilləşdirilməsi və bu prosesdə prokurorluq orqanlarının fəal rolu barədə ətraflı məlumat verib.

Çıxış zamanı dövlətimizin başçısının 25 sentyabr 2025-ci il tarixində Nyu-Yorkda BMT Baş Assambleyasının 80-ci sessiyasında səsləndirdiyi Xəzər dənizinin ekoloji vəziyyəti ilə bağlı fikirlərə toxunularaq, Xəzər dənizində ətraf mühitə zərər vuran cinayətlərə qarşı mübarizədə regional səylərin birləşdirilməsinin vacibliyi vurğulanıb.

Baş prokuror, həmçinin, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi (BMTNCİ), Beynəlxalq Prokurorlar Assosiasiyası (BPA) və İslam Əməkdaşlıq Təşkilatı (İƏT) kimi beynəlxalq qurumlarla sıx əməkdaşlığın həyata keçirildiyini bildirib.

Qeyd edib ki, 2024-cü ilin 15 noyabrında COP29 çərçivəsində Azərbaycan Prokurorluğunun təşkilatçılığı ilə "İqlim dəyişikliyi ilə mübarizədə hüquq-mühafizə orqanlarının səfərbər edilməsi" mövzusunda yüksək səviyyəli beynəlxalq tədbir keçirilib və tədbirdə 200-dən çox xarici və yerli nümayəndə iştirak edib.

Tədbir çərçivəsində "Belem Bəyannaməsi" qəbul edilib.

Bəyannamədə prokurorluq orqanlarının ətraf mühitin qorunması, iqlim ədalətinin təmin olunması və bu sahədə beynəlxalq əməkdaşlığın gücləndirilməsi ilə bağlı vəzifələri əksini tapıb.

Plenar iclasdan sonra Baş prokuror Braziliyanın aparıcı televiziya kanallarına müsahibə verib.

Müsahibə zamanı Azərbaycan Prokurorluğunun iqlim cinayətləri ilə mübarizə sahəsində topladığı təcrübə, beynəlxalq əməkdaşlığın gücləndirilməsi və təcrübə mübadiləsinin vacibliyi, həm ölkələr, həm də prokurorluq orqanları arasında sıx əlaqələrin və etimad mühitinin mövcud olması, eləcə də ölkə rəhbərlikləri səviyyəsində əməkdaşlığın yüksək səviyyədə qurulması vurğulanıb.

Bundan başqa, Baş prokuror COP29 çərçivəsində Azərbaycan Prokurorluğu tərəfindən təşkil olunan yüksək səviyyəli beynəlxalq tədbirin sonunda qəbul olunan "Baku Call to Action" sənədini xatırladaraq, həm bu təşəbbüsün, həm də "Belem Bəyannaməsi"nin qlobal miqyasda iqlim ədalətinin təminində və ekoloji cinayətlərə qarşı birgə səylərin artırılmasına mühüm töhfə verdiyini qeyd edib.

# Milli Kitabxanada "Biblioqrafiyaşünas alim Fərman Bayramov - 90" adlı ənənəvi kitab sərgisi açılıb

***Milli Kitabxanada biblioqrafiyaşünas alim Fərman Bayramovun anadan olmasının 90 illik yubileyi münasibətilə "Biblioqrafiyaşünas alim Fərman Bayramov - 90" adlı ənənəvi kitab sərgisi açılıb.***




Sərgidə biblioqrafiyaşünas alimin elmi tədqiqatları, həyatı və elmi fəaliyyəti haqqında ədəbiyyatlar, elmi məcmuələrdə çap olunan məqalələri, dövri mətbuat materialları nümayiş olunur.

Qeyd edək ki, Fərman Aslan oğlu Bayramov 1935-ci il oktyabrın 23-də Gədəbəy rayonunda anadan olub. O, 1960-cı ildə Azərbaycan Dövlət Universitetinin Kitabxanaçılıq fakültəsini (indiki Bakı Dövlət Universitetinin İnformasiya və sənəd menecmenti fakültəsi) bitirib. 1960-1969-cu illərdə M. F. Axundov adına Azərbaycan Dövlət Kitabxanasında (indiki M. F. Axundov adına Azərbaycan Milli Kitabxanası) baş metodist və şöbə müdiri vəzifələrində çalışıb.

1970-ci ildən BDU-nun Kitabxanaçılıq fakültəsində (indiki İnformasiya və sənəd menecmenti fakültəsi) fəaliyyət göstərib. Biblioqrafiya kafedrasının inkişafında böyük xidmətləri olub. Onun fəaliyyəti nəticəsində tədris olunan fənlərin və aparılan elmi araşdırmaların keyfiyyətinin artması müşahidə olunmağa başlanıb.

O, "Cəlil Məmmədquluzadənin ədəbi irsinin nəşri, tarixi və yazıçı haqqında biblioqrafiya" adlı namizədlik dissertasiyasını müdafiə edərək, filologiya elmləri namizədi elmi dərəcəsini alıb.

Fərman Bayramov "Azərbaycan iqtisadiyyatının biblioqrafiyası", "Milli biblioqrafiyalarımızdan biri", "XX əsr Azərbaycan alimləri və biblioqrafiya", "H.Z. Şirvani yaradıcılığında mütaliə və biblioqrafiya məsələləri" adlı məqalələrin, "Cəlil Məmmədquluzadə: 1866-1966", "Nəriman Nərimanov: 1870-1970" biblioqrafik vəsaitlərinin, eləcə də bir sıra xronikaların müəllifi olub.

Elm və təhsilin inkişafındakı xidmətlərinə görə "Əmək veteranı" medalı ilə təltif edilib.

40_27 IYUl-QARA.qxd 10/23/2025 9:16 PM Page 14



# Şəhid Kamran Fərəcovun əziz xatirəsi ehtiramla yad olunub



***Azərbaycan tarixinin şanlı səhifəsi olan 44 günlük haqq savaşımızın daha bir qəhrəman oğlu Kamran Fərəcovdur. 30 il yağıya əsir düşən əzəli yurd yerimiz olan Qarabağın xilaskar zəfər şəhidinin adı çəkiləndə indi bütün xalq onunla qürur duyur. Onun şərəfli həyat yolu Vətənə bağlı olmaqla mərdlik, qeyrət nümunəsidir.***

Bunlarla bərabər, qısa ömrünə yaxşı ailə başçısı olmağı da sığdıra bilib. Vətən sevdalısının həyat yoldaşı Nurana Fərəcova Astara Pedaqoji Kollecində Maliyyə -informasiya və qida təhlükəsizliyi şöbəsinin müdiridir. Xeyirxahlığı, mənəvi yetkinliyi həmişə bu xanım-xatın qadına hörmət gətirir. Ləyaqətlə, şərəflə günlərini yaşayır. Kamrandan Vətənə əmanət olan iki qız övladını da ataların adına layiq böyüdür.

Şəhid mayor Kamran Fərəcovun şəhadətə ucalmasının 5-ci ildönümü münasibətilə Nurana müəllimin çalışdığı kollecin direktoru Kamran Kazımov başda olmaqla bir qrup əməkdaşı, eləcə Yeni Azərbaycan Partiyasının Astara rayon təşkilatının sədri Həbib Cəfərov, Astara Təhsil Sektorunun müdiri Xədicə Əliyeva ailəsində olub, məzarını ziyarət edib, önünə tər güllər düzüblər.

Çıxışlar zamanı bildirilib ki, Kamran özünü doğma Azərbaycana, xalqına həsr etdi. İkinci Qarabağ müharibəsi başlanan kimi, Vətənin harayına birinci getdi, qazanılan parlaq qələbəmizin mərdlik, qəhrəmanlıq simvoluna çevrilib milyonların ürəyinə köçdü.

Məlumat üçün onu da deyək ki, şərəfli ölümü ilə ölümsüzlüyə qovuşan Kamran Fərəcov 14 yanvar 1978-ci ildə Astaranın Sencərədi kəndində dünyaya gəlib. Orta təhsildən sonra, 1995-ci ildə Bakı Ali Birləşmiş Komandanlıq Məktəbinin Taktik Tank Qoşunları komandiri fakültəsinə daxil olub. 1999-cu ildə oranı leytenant rütbəsində bitirib Bakıda tağım komandiri vəzifəsində xidmətə başlayıb. Sonra Ağdamda, Gəncədə, Goranboyda cəbhə bölgəsində Vətən qarşısında borcunu şərəflə yerinə yetirib. "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalına layiq görülüb.

Bütün arzuların zirvəsində Azərbaycanın azadlığı, xalqın xoşbəxtliyi dayanan, qəlbi erməni dığalardan qisas almaq hissi ilə döyünən Kamran Fərəcov 20 sentyabr 2020-ci ildən könüllü təlimlərə qatılıb, şəxsi heyəti döyüşə hazırlayıb. İkinci Qarabağ müharibəsi zamanı Cəbrayılın, Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Bir-birindən çətin döyüşlərdən zəfərlə çıxan qəhrəman Qubadlı uğrunda gedən qeyri-bərabər vuruşda Vətən eşqli ürəyi düşmən gülləsinə tuş gəlib. Boya-başa satdığı Astara rayonunda ürəkdən sevdalandığı Vətən torpağının sinəsinə baş qoyub. Ölümündən sonra 3-cü dərəcəli "Rəşadət " ordeni, "Vətən uğrunda", "İgidliyə görə", Cəbrayılın və Qubadlının azadlığı uğrunda medalları ilə təltif olunub.

***Zəfər Orucoğlu,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

# 2025-ci ilin yanvar-iyun aylarında Yevlax şəhəri üzrə "Əmtəə bazarı haqqında" statistika

***2025-ci ilin yanvar-iyun aylarında pərakəndə ticarət dövriyyəsinin həcmi 285763,9 min manat olmuş və keçən ilin müvafiq dövrü ilə müqayisədə müqayisəli qiymətlərlə 0,2 faiz azalmışdır.***

2025-ci ildə ölkə üzrə pərakəndə ticarət dövriyyəsində Yevlax rayon üzrə pərakəndə ticarət dövriyyəsi 0,96 faiz təşkil etmişdir. 2025-ci ilin iyul ayının 1-i vəziyyətinə 150 fərdi sahibkarın və 410 fərdi şəxsin məşğul olduğu 560 ticarət yerinə malik, 9200 kv.m sahəsi olan ərzaq və qeyri ərzaq malları bazarı fəaliyyət göstərir. Pərakəndə ticarət dövriyyəsinin quruluşunda ərzaq malları, içkilər və tütün məmulatlarının xüsusi çəkisi 59,9 faiz, yaxud 171063,4 min manat, qeyri-ərzaq mallarının xüsusi çəkisi 40,1 faiz, yaxud 114700,5 min manat olmuşdur.

2025-ci ilin yanvar-iyun aylarında ticarət şəbəkəsindən rayonun hər bir sakini orta hesabla 2024,7 manat və ya keçən ilin müvafiq dövrü ilə müqayisədə 80,7 manat çox istehlak malları almışdır.




2025-ci ilin yanvar-iyun aylarında hüquqi şəxs yaratmadan ticarətlə məşğul olan fiziki şəxslər tərəfindən keçən ilin müvafiq dövrü ilə müqayisədə əhaliyə müqayisəli qiymətlərlə 0,8 faiz az istehlak malları satılmışdır.

2025-ci ilin hesabat dövründə pərakəndə satışın 9,2 faizini (26210,0 min manatını) rəsmi qeydiyyatdan keçmiş müəssisələr, 50,0 faizini, (142929,5 min manatını) bazar və yarmarkalar, 40,8 faizini, (116624,4 min manatını) isə fiziki şəxslər təşkil etmişdir.

Hüquqi şəxs yaratmadan ticarətlə məşğul olan fiziki şəxlər tərəfindən əhaliyə əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 9986,2 min manat çox istehlak malları satılmışdır.

2025-ci ilin yanvar-iyun aylarında topdansatış ticarət dövriyyəsi 7544,1 min manat təşkil edərək, əvvəlki ilin müvafiq dövrünə nisbətən 63,5 faiz və ya 2930,4 min manat çox olmuşdur.

2025-ci il iyul ayının 1-i tarixinə ticarət şəbəkə və anbarlarında 27390,8 min manatlıq mal ehtiyatları olmuşdur. Mal ehtiyatlarının 992,6 min manatı topdansatış, 26398,2 min manatı pərakəndə ticarət şəbəkələrin anbarlarında olmuşdur.

Pərakəndə mal ehtiyatlarının 2224,4 min manatı rəsmi qeydiyyatdan keçmiş müəssisələrin, 24173,8 min manatı hüquqi şəxs yaratmadan fəaliyyət göstərən fərdi sahibkarların şəbəkələrində olmuşdur.

***Hazırladı,***
***Yevlax Şəhər Statistika İdarəsinin aparıcı məsləhətçisi Mehriyyə Vəliyeva***



# Lisenziya müqaviləsinin forması və bağlanılma qaydaları təsdiqləndi

***"Lisenziya müqaviləsinin forması və bağlanılma Qaydası" təsdiq edilib.***

"Unikal"ın məlumatına görə, bununla bağlı iqtisadiyyat naziri Mikayıl Cabbarov müvafiq qərar imzalayıb. Sənədə əsasən, bu Qayda "Lisenziyalar və icazələr haqqında" Qanunun tətbiqi ilə əlaqədar yanacaqdoldurma və qaz təchizatı obyektlərinin quraşdırılması və istismarı fəaliyyət növü (fəaliyyət növünün adı göstərilməklə) üzrə lisenziya müqaviləsinin (bundan sonra - lisenziya müqaviləsi) formasını və bağlanılma qaydasını müəyyən edir.

Hüquqi şəxsə, xarici hüquqi şəxsin filialı, nümayəndəliyi və fərdi sahibkara yanacaqdoldurma və qaz təchizatı obyektlərinin quraşdırılması və istismarı fəaliyyət növünə (fəaliyyət növünün adı göstərilməklə) lisenziya verildiyi tarixdən 30 (otuz) gün müddətində İqtisadiyyat Nazirliyi (bundan sonra - Nazirlik) ilə lisenziya sahibi arasında lisenziya müqaviləsi bağlanılır.

Lisenziya müqaviləsi yazılı formada və müddətsiz bağlanır.

Bu Qaydada istifadə olunmuş anlayışlar "Lisenziyalar və icazələr haqqında" Qanunda, habelə digər qanunvericilik aktlarında nəzərdə tutulan mənaları ifadə edir.

Lisenziya sahibi qanunvericiliklə nəzərdə tutulmuş sənədlərlə yanaşı, 2 nüsxədə özü tərəfindən imzalanmış, hüquqi şəxs, xarici hüquqi şəxsin filialı və ya nümayəndəliyinə münasibətdə həm də möhürlənmiş lisenziya müqaviləsini Nazirliyə təqdim edir.

Nazirlik lisenziya verildiyi tarixdən 30 (otuz) gün ərzində lisenziya müqaviləsini imzalayaraq, lisenziya sahibinə təqdim edir.

Qanunvericilikdə müəyyən olunmuş hallar istisna olmaqla, tərəflər bu müqavilənin imzalanmasından olaraq imtina edə bilməzlər.

Lisenziya müqaviləsi müqavilənin bağlanması haqqında lisenziya sahibinə "İnzibati icraat haqqında" Qanununun 62-ci maddəsində nəzərdə tutulmuş qaydada məlumat verildiyi gün qüvvəyə minir.

Lisenziya müqaviləsi lisenziya verildiyi tarixdən 30 (otuz) gün müddətində bağlanmadıqda, müvafiq lisenziya hüquqi nəticələr yaratmır.

Lisenziya müqaviləsi Mülki Məcəllədə və "İnzibati icraat haqqında" Qanunda müəyyən edilən qaydada ləğv oluna bilər.

Məlumat üçün bildirək ki, qərar oktyabrın 10-da qəbul edilib, oktyabrın 21-də Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilib, oktyabrın 22-də qüvvəyə minib.

# 400 mindən çox şəxsə Prezident təqaüdü verilib

***Bu ilin yanvar-sentyabr aylarında Dövlət Sosial Müdafiə Fondu 502 min nəfərə sosial müavinət, 402 min nəfərə Prezidentin aylıq təqaüdünü ödəyib.***

"Unikal" xəbər verir ki, bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi məlumat yayıb.

Qeyd edilib ki, həmin dövrdə əhaliyə sosial müavinətlər üzrə 861 mln. manat, Prezident təqaüdləri üzrə 551 mln. manat ödənilib.

40_27 IYUl-QARA.qxd 10/23/2025 9:19 PM Page 15



## "ABŞ bizim düşmənimizdir" - Medvedev



***"ABŞ Rusiya tərəfinə qarşı birbaşa müharibə yoluna başlayıb".***

"Unikal" xəbər verir ki, bunu Rusiya Təhlükəsizlik Şurasının sədr müavini Dmitri Medvedev deyib.

"ABŞ bizim düşmənimizdir və onların danışıq "sülhməramlısı" indi tamamilə Rusiyaya qarşı müharibə yolundadır", - o, "Telegram"da yazıb.

## "Rusiyaya daha çox təzyiq göstərmək lazımdır" - Zelenski

***Ukrayna prezidenti Volodimir Zelenski Aİ sammiti çərçivəsində Brüsseldə rəsmi səfərdədir.***



"Unikal" xəbər verir ki, bu barədə xarici KİV yazıb.

Zelenski Brüsseldə ərazi güzəştləri ilə bağlı müzakirələrin olmadığını bildirib: "Atəşkəs mümkündür, lakin Rusiyaya daha çox təzyiq göstərmək lazımdır.

Qeyd edək ki, Donbasın Rusiyaya verilməsi məsələsi müzakirə olunur və bu yaxınlarda ləğv edilmiş Putin-Tramp görüşündə də bu məsələ müzakirə olunmalı idi.

*Ağarza Elçinoğlu*

## Qazaxıstanda "naməlum" PUA partlayıb



***Qazaxıstan ölkə ərazisində "mənşəyi naməlum" pilotsuz təyyarənin partlaması barədə məlumat paylaşıb.***

"Unikal" xəbər verir ki, bu barədə məlumatı Qazaxıstan Müdafiə Nazirliyi yayıb.

"Qərbi Qazaxıstan vilayətinin Burlin rayonunda mənşəyi naməlum pilotsuz uçuş aparatının partlaması qeydə alınıb", - ölkənin departamenti bildirib.

Pilotsuz təyyarənin qalıqları ucqar ərazidə tapılıb. Hadisə nəticəsində xəsarət alan və maddi ziyan olmayıb. Hazırda hadisənin baş vermə şəraiti və obyektin mənşəyinin müəyyən edilməsi istiqamətində əməliyyat-axtarış tədbirləri davam etdirilir.

## Rusiyada mer işdən çıxarıldı

***Ryazan Şəhər Dumasının sədri Tatyana Panfilova şəhər meri Vitali Artemovu vəzifəsindən kənarlaşdırıb.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya mətbuatı yazıb.

Bəyanatda qeyd olunub ki, bu qərar Ryazan vilayətinin antikorrupsiya komitəsi ilə əlaqədar, vilayətin qubernatoru Pavel Malkovun əmri əsasında qəbul edilib.

*Ağarza Elçinoğlu*

## Tramp Putinlə görüşünü ləğv etdi



***ABŞ prezidenti Donald Tramp Rusiya prezidenti Vladimir Putinlə Budapeştdə görüşünü ləğv edib.***

"Unikal" xəbər verir ki, bu barədə Ağ Ev məlumat yayıb. Bildirilir ki, Tramp bu görüşün lazım olmadığı qənaətinə gəlib.

Bundan əvvəl Rusiya və ABŞ prezidentləri Vladimir Putin və Donald Tramp arasında görüşün Macarıstanda baş tutacağı bildirilmişdi.

*Gülayə Mecid*

## Paşinyan yenidən İlham Əliyevin qərarını alqışladı

***"Yaxın gələcəkdə əsaslı dəyişikliklər baş verəcək, xüsusən indi biz məmnunluqla qeyd etməliyik ki, Ermənistan tədricən blokadadan çıxır".***



"Unikal" xəbər verir ki, bunu Ermənistanın baş naziri Nikol Paşinyan hökumətin iclasında deyib.

"Artıq iki gündür ki, Azərbaycan Ermənistana ixrac məhdudiyyətlərinin aradan qaldırılmasını müzakirə edir və Tbilisidə keçirilən "İpək Yolu" konfransında mən Azərbaycan prezidentinin bu qərarını yüksək qiymətləndirdiyimi bildirdim və bu qərarı alqışladım. Mən burada da eyni şeyi etmək istəyirəm, çünki bu, çox mühüm qərardır və bu, Vaşinqton bəyannaməsi və əldə olunan razılaşmaların sadəcə bəyannamə olmadığını, konkret nəticələr verdiyini göstərir. Kəndlərimizin birində güllə səsi eşidəndə şəhərisi gün bütün sosial şəbəkələrdə mövzu qızğın müzakirə olunur, amma uzun müddət kənddə güllə səsi eşidilməyəndə təbii ki, bunu müzakirə edən yoxdur. Amma bizdə hər gün bu məlumat var. Biz bu parametrləri görməliyik, ölçüb-biçməliyik", - deyə o bildirib.

Paşinyan qeyd edib ki, bəziləri səhərdən axşama kimi Ermənistanın məhv edildiyini bəyan edirlər: "Bu adamlar Ermənistanı sadəcə olaraq tanımırlar. Ermənistanda elə qurumlar, təşkilatlar, siyasi fəlsəfə var ki, onun özü də Ermənistanın dağıdılması düsturunda yaşayır. Yəni onun münasibət forması, fəaliyyət forması, fəaliyyət obyekti dağıdılan Ermənistandır. Əgər Ermənistan məhv edilmirsə, fəaliyyət meydanı yoxdur, ona görə də Ermənistanın fəaliyyət göstərməsi üçün az da olsa, dağıdılması lazım olduğu görünür. artıq mümkün deyil və parlament zalında müxalifətin boş yerləri buna sübutdur".

*Ağarza Elçinoğlu*

## "Sədərəyə dəmir yolu çəkilənə qədər Ermənistan blokadada qalacaq" - Erməni deputat

***"Yerasx-Sədərək dəmir yolu çəkilənə qədər Ermənistan blokadada qalacaq".***



"Unikal" xəbər verir ki, bunu Ermənistan parlamentinin "Hayastan" fraksiyasından olan deputat Artur Xaçatryan deyib.

O, oktyabrın 23-də Dövlət Xidmətlərinin Tənzimlənməsi Komissiyasına üzv seçilməsi ilə bağlı müzakirələr zamanı qeyd edib ki, regional kommunikasiya və blokadanın aradan qaldırılması ilə bağlı müzakirələr hələlik real işlərə uyğun gəlmir: "Yerasx-Sədərək yolunun açılması həyati əhəmiyyət kəsb edir. O tikilənə qədər Ermənistan blokadada qalacaq. Teztez haqqında danışılan "Tramp yolu" bu hissə olmadan tam fəaliyyət göstərə bilməz. Yolun təkcə 42 kilometri deyil, Yerasxa gedən bütün marşrutu əhatə etməsi vacibdir".

Millət vəkili İcevan-Qazax yolunun əhəmiyyətini də vurğulayaraq, onun açılmasının təkcə Tbilisiyə deyil, həm də Xəzər dənizinə qısa yol açdığını qeyd edib.

*Ağarza Elçinoğlu*

## Məhbuslar eks-prezidenti yatmağa qoymurlar - KİV

***Fransanın keçmiş prezidenti Nikola Sarkozinin Sante həbsxanasında məhbus yoldaşları yatmasına mane olur.***

"Unikal" xəbər verir ki, bu barədə xarici KİV məlumat dərc edib.

"Nikola Sarkozinin həbsxanada ilk gecəsi yaxşı keçməyib. Digər məhbuslar onu məsxərəyə qoyublar, şüarlar səsləndiriblər, təhqir ediblər".

Məlumata görə, hadisədən sonra iki polis əməkdaşı Sarkozinin yanındakı həbsxana kamerasına gəlib.

Xatırladaq ki, oktyabrın 21-də Nikola Sarkozi 2007-ci il seçki kampaniyasını Liviya hökuməti tərəfindən qeyri-qanuni maliyyələşdirdiyi iddiası ilə 5 il həbs cəzasına məhkum edilib. O, həbsini Paris həbsxanasında çəkir.



Siyasətçi həbs olunmazdan əvvəl son açıqlamasında qeyd edib ki, "keçmiş prezidenti dəmir barmaqlıqlar arxasına yox, günahsız insanı həbs edirlər".

## "Tezliklə robotlar bütün işləri əvəz edəcək" - İlon Mask

***"Tezliklə insanlar işləmək məcburiyyətində qalmayacaq: süni intellekt və robotlar bütün işləri əvəz edəcək".***



"Unikal" xəbər verir ki, bunu amerikalı milyarder İlon Mask "Telegram" kanalında yazıb.

"Mağazadan tərəvəz almaq əvəzinə öz tərəvəzlərinizi yetişdirmək kimi işlər lazımsız olacaq", - deyə o qeyd edib.

*Ağarza Elçinoğlu*

40_27 IYUI-QARA.qxd 10/23/2025 9:21 PM Page 16



# Andrade tarixə düşdü

***Ötən gecə UEFA Çempionlar Liqasının (ÇL) əsas mərhələsində İspaniyada "Atletik" və "Qarabağ" komandaları arasında keçirilən III tur oyunu (3:1) bir sıra maraqlı statistik göstəricilərlə yadda qalıb.***

"Unikal" Beynəlxalq Futbol Tarixi və Statistikaları Federasiyasının (IFFHS) rəsmi saytına istinadla xəbər verir ki, Bilbao təmsilçisi tarixində ilk dəfə qitənin ən nüfuzlu klub turnirində hesabda geri düşdükdən sonra (0:1) məğlub olmayıb.

Ağdam təmsilçisinin futbolçusu Leandro Andrade 48-ci saniyədə fərqlənərək "Atletik"in ÇL tarixində buraxdığı ən erkən qolun müəllifi olub. Kabo-verdeli yarımmüdafiəçi bu göstərici ilə 1998/1999-cu illər mövsümündə 1 dəqiqə 25 saniyəyə ispaniyalıların qapısına yol tapan Norveçin "Rusenborq" klubunun oyunçusu Yan Sorenseni geridə qoyub.



Maraqlısı odur ki, Çempionlar Liqasında ilk dəqiqədə fərqlənən son 14 komandadan yalnız 4-ü qarşılaşmanı qələbə ilə başa vurub. "Atletik" bu turnirdə matçın ilk dəqiqəsində qol buraxıb qələbə qazanan ilk İspaniya klubu kimi tarixə düşüb.

La Liqa təmsilçisi "Qarabağ"la oyunadək Çempionlar Liqasında uzaq məsafədən qol vurmamışdı. Dünənki qarşılaşmada isə Bilbao təmsilçisinin hər üç qolu uzaq məsafədən reallaşıb. Bir mövsümdə eyni görüşdə üç uzaq məsafəli qola imza atan digər komanda oktyabrın 21-də İtaliya nəhəngi "Napoli"ni 6:2 hesabı ilə məğlub edən Niderlandın PSV kollektivi olub.

"Atletik"in heyətində qolların ikisini Qorka Guruseta vurub. Hücumçu zərbələri hər iki ayağı ilə (sağ və sol) yerinə yetirib. Buna bənzər uğuru sonuncu dəfə Lionel Messi 2019-cu ildə "Barselona" forması ilə İngiltərənin "Mançester Yunayted" komandasına qarşı göstərmişdi.

Quruseta avrokuboklarda bir qarşılaşmada 2 və ya daha çox qol vuran 4-cü "Atletik"li futbolçu olub. Ondan əvvəl bunu Xose Luis Artetxe (1956), Merodio (1956) və İqnasio Uribe (1957) bacarıb.

# "Bu üç xal bizim üçün çox önəmlidir" - "Atletik"in futbolçusu

***"Qarabağ"la matçda komandamızın məqsədi sadəcə qalib gəlmək idi. Daha çox qol fürsəti yaratmalı və onları dəyərləndirməli idik. Bu üç xal bizim üçün çox önəmlidir.***

"Unikal" xəbər verir ki, bu sözləri İspaniyanın "Atletik" klubunun futbolçusu Qorka Quruseta UEFA Çempionlar Liqasının əsas mərhələsində "Qarabağ"ı 3:1 hesabı ilə üstələdikləri III tur oyunu barədə danışarkən deyib.

Komandasının iki qolunun müəllifi olan hücumçu nəticəyə görə xoşbəxt olduğunu bildirib: "Çempionlar Liqasında qalib gəlmək və qol vurmaq mənim üçün arzu idi. Daha sakit və təmkinli olmağa çalışdım. Çünki qol vurmaq üçün fürsətin nə vaxt gələcəyini bilmirsən. İkinci qolum daha təmiz və gözəl alındı. Mikel Xaureqisar yaxşı ötürmə verdi. Topa ilk toxunuşdan dərhal sonra zərbə vurmağa qərar verdim. Ümid edirəm ki, bu qələbə yolun başlanğıcıdır və eyni performansı növbəti matçlarda da göstərəcəyik".




Qeyd edək ki, ilk 3 turdan sonra aktivində 6 xal olan "Qarabağ" 13-cü pillədə qərarlaşıb. Bilbao klubu isə 3 xalla 21-ci yerdədir.

# Çempionlar Liqası: "Çelsi", "Liverpul" və "Bavariya"dan böyük hesablı qələbə

***UEFA Çempionlar Liqasının əsas mərhələsində III tura yekun vurulub.***

"Unikal" xəbər verir ki, son oyun günündə daha 7 qarşılaşma keçirilib.

"Qarabağ"ın rəqiblərindən "Çelsi" İngiltərədə "Ayaks"ı, "Liverpul" isə Almaniyada "Ayntraxt"ı darmadağın edib. "Bavariya" isə Almaniyada Belçika "Brügge"sinin qapısından 4 cavabsız top keçirib.

"Real Madrid" isə İspaniyada İtaliyanın "Yuventus" klubuna minimal hesabla qalib gəlib.




Çempionlar Liqası
Liqa mərhələsi, III tur

**22 oktyabr**

20:45. "Qalatasaray" (Türkiyə) - "Budyo Qlimt" (Norveç) - 3:1

20:45. "Atletik" (İspaniya) - "Qarabağ" (Azərbaycan) - 3:1

23:00. "Çelsi" (İngiltərə) - "Ayaks" (Niderland) - 5:1

23:00. "Atalanta" (İtaliya) - "Slaviya" (Praqa, Çexiya) - 0:0

23:00. "Ayntraxt" (Almaniya) - "Liverpul" (İngiltərə) - 1:5

23:00. "Sportinq" (Portuqaliya) - "Marsel" (Fransa) - 2:1

23:00. "Monako" (Fransa) - "Tottenhem" (İngiltərə) - 0:0

23:00. "Real Madrid" (İspaniya) - "Yuventus" (İtaliya) - 1:0

23:00. "Bavariya" (Almaniya) - "Brügge" (Belçika) - 4:0

# Arda oyunun ən yaxşısı seçildi

***Çempionlar Liqasının üçüncü həftəsində "Real Madrid" doğma meydanda "Yuventus"u 1:0 hesabı ilə məğlub edib.***




"Unikal" xəbər verir ki, İspaniya klubunda çıxış edən Arda Güler ??matçın adamı seçilib.

Matçda 7 açar ötürmə edən və 0.55 assist gözləntisi ilə oynayan Arda, 71 ötürmədən 69-da dəqiq olub. 5 dəqiq mərkəzi ötürmə edən 20 yaşlı ulduz, 6 uzaq ötürmə cəhdinin hamısında uğurlu olub.

Matçın futbolçusu seçilən Güler, oyunun sonunda mükafatlandırılıb.

# Daha 3 boksçumuz yarımfinalda - Avropa çempionatı

***Monteneqronun Budva şəhərində boks üzrə U-15 Avropa çempionatı davam edir.***




32 ölkədən 369 idmançının qatıldığı yarışın beşinci günündə Azərbaycan millisinin daha 3 boksçusu qələbə qazanıb.

Elcan Musazadə (50 kq) 1/4 finalda Tobais Viçeniklə (Çexiya) qarşılaşıb. Təmsilçimiz ardıcıl üçüncü görüşündən də qalib ayrılıb - 5:0 (30:27, 30:27, 30:27, 30:26, 30:27). O, yarımfinalda Şeyn Kitlə (İngiltərə) üz-üzə gələcək.

Yusif Ağakişiyev (75 kq) də 1/4 final mərhələsindəki döyüşünü xeyrinə bitirib. Boksçumuza Giorge Bratunu (Rumıniya) məğlub etməyə cəmi 45 saniyə kifayət edib. Tam üstünlüklə qələbə qazanan Ağakişiyev yarımfinalda Oleksandr Tomiçlə (Ukrayna) qarşılaşacaq.

Mehran Rəsulov (80 kq) isə 1/4 finalda Giorgi Quledanini (Gürcüstan) məğlub edib - 5:0 (30:27, 30:27, 30:27, 30:27, 30:27). O, növbəti görüşündə Valeri Todorovla (Bolqarıstan) gücünü yoxlayacaq.

Hər 3 milli üzvü yarımfinala yüksəlməklə özləri üçün azı bürünc medalı təmin ediblər. Onlardan öncə 2 oğlan və 2 qız boksçumuz da bu hüquqa yiyələnib.

Avropa çempionatında 1/4 final döyüşləri bu gün də davam edəcək.

Qeyd edək ki, yarışa oktyabrın 25-də yekun vurulacaq. Qız idmançılarda oktyabrın 23-də, oğlanlarda ertəsi gün yarımfinal görüşləri baş tutacaq.

# Ayın ən yaxşı qolunun müəllifi mükafatlandırıldı

***Azərbacan 1-ci liqasında "Ayın qolu" layihəsi çərçivəsində "Şahdağ Qusar"ın üzvü Ruslan Voronsov mükafatlandırılıb***

QOL.az xəbər verir ki, sentyabr ayının ən yaxşı qolunun müəllifinə mükafat 6-cı turun "Cəbrayıl" -"Şahdağ Qusar" qarşılaşmasından əvvəl əqdim olunub.

Voronsova mükafatı Peşəkar Futbol Liqasının Media şöbəsinin rəisi Müzəffər Müzəffərli təqdim edib.

# Araz-Naxçıvan"ın ÇL-dəki ilk 2 oyununun hakimləri



***Futzal üzrə UEFA Çempionlar Liqasının əsas mərhələsində iştirak edəcək "Araz-Naxçıvan"ın 7-ci qrupda keçirəcəyi ilk iki oyuna təyinatlar açıqlanıb.***

QOL.az xəbər verir ki, bu qrupun oyunları Rumıniyada keçiriləcək.

Azərbaycan təmsilçisinin matçları isə aşağıdakı hakimlərə tapşırılıb:

**29 oktyabr**

22:00. "Araz-Naxçıvan" - "Yunayted Qalati" (Rumıniya)

Hakimlər: Aslan Qalayev (Qazaxıstan), Valentin Kiuplea (Uels), İrmantas Kapraşovas (Litva)

Timekiper: Laurentiu Deakonu (Rumıniya)

Hakim-inspektor: Nebojsa Paniç (Serbiya)

UEFA nümayəndəsi: Miodraq Raduloviç (Monteneqro)

Sala Sporturilor Dunarea.

**30 oktyabr.**

19:00. "Araz-Naxçıvan" - "Differdanje 03" (Lüksemburq)

Hakimlər: Valentin Kiuplea, Viktor Çaix (Fransa), Aslan Qalayev

Timekiper: Laurentiu Deakonu (Rumıniya)

Hakim-inspektor: Nebojsa Paniç (Serbiya)

UEFA nümayəndəsi: Miodraq Raduloviç (Monteneqro)

Sala Sporturilor Dunarea